AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

**BAYRAM FƏTİ OĞLU APOYEV**

# NİZAMİ GƏNCƏVİNİN PEDAQOJİ İDEYALAR SİSTEMİ

5804.01– Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI-2017**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Şahin Tağı oğlu Tağıyev**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Oruc Qafar oğlu Həsənli**
*pedaqogika üzrə elmlər doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi,*

**Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə**
*filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası**

Müdafiə " 4 " iyul 2017-ci il tarixdə saat $14^{00}$ - da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat "___"_____________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **Rövşən Zülfüqar oğlu Hümbətəliyev**
*riyaziyyat üzrə elmlər doktoru, dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Təlim-tərbiyə işini, bütövlükdə təhsil sistemini milli zəmin üzərində qurmaq istəyiriksə, ilk növbədə, milli-mənəvi dəyərlərimizi dərindən öyrənməliyik. Dahi öndərimiz H.Əliyev nitq və çıxışlarında dönə-dönə qeyd edirdi ki, milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Ulu öndərin bu fikri Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da öz əksini tapmışdır.

Qədim mədəniyyətə, dərin tarixi köklərə malik olan xalqımızın mənəviyyat xəzinəsi özünün zənginliyi ilə dünya miqyasında seçilir və qiymətləndirilir. Bu xəzinənin həqiqi sahibi olmaq və onu daha da zənginləşdirərək qoruyub saxlamaq üçün həmin xəzinənin daha dərin qatlarına milli ideologiyamızın – azərbaycançılığın işiğında, yeni pedaqoji təfəkkür prizmasından nüfuz etmək pedaqoji elmin qarşısında duran ən aktual problemlərdən biridir.

Mənəviyyat xəzinəmizin heç vaxt solmayan ən qiymətli incilərindən biri dünya poeziyasının sönməz günəşi olan Nizami Gəncəvinin bizə miras qoyub getdiyi ədəbi-pedaqoji irsdir. Doqquz əsrə yaxındır ki, bu irsdən "əxlaq dərsliyi" kimi istifadə olunur və neçə-neçə əsrlər bundan sonra da istifadə olunacaqdır. Dahi şairin Azərbaycan mədəniyyəti tarixindəki misilsiz rolunu ümummilli liderimiz H.Əliyev çox yüksək dəyərləndirmişdir: "Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar... Bu gün də bizim ədəbiyyatımızın, şeirimizin, mədəniyyətimizin əsas mənbələrindən biri Nizami Gəncəvi yaradıcılığı, onun əsərləri – "Xəmsə"si – poemalarıdır"[1]

Ədalət naminə qeyd etmək lazımdır ki, təkcə XX əsrdə dahi şair haqqında yüzlərlə kitab və kitabça, elmi məqalələr yazılmış, onun həyat və yaradıcılığını tərənnüm edən çoxsaylı bədii əsərlər və sənət nümunələri yaradılmış, bir çox fundamental tədqiqatlar aparılmışdır. Bu baxımdan, şairin həyat və yaradıcılığını, dünyagörüşünü, fəlsəfi-estetik baxışlarını, poeziyasının sənətkarlıq xüsusiyyətlərini, dünya ədəbiyyatının inkişafındakı rolunu tədqiq etmiş və müvafiq fundamental monoqrafiyalar, dəyərli elmi əsərlər çap etdirmiş alimlərimizdən H.Araslı, M.Rəfili, Ə.Ağayev, M.Əlizadə, M. Cəlal Paşayev, M.Arif, X.Yusifli, Q.Əliyev,

---

[1] Heydər Əliyev və Gəncə, Bakı:Şərq-Qərb,1999, səh.114-115

R.Əliyev, M.Cəfərov, R.Azadə, A.Hacıyev,T.Kərimli, N.Araslı, D.Əliyeva, V.Arzumanlı, Z.Məmmədov, C.Mustafayev, X.Əlimirzəyev, M.Yusifov, M.Qocayev, Ə.Əhmədov, S.Həsənzadə və başqalarının əməyini yüksək qiymətləndiririk.

Dahi şair və filosof olmaqla yanaşı, böyük tərbiyəçi olan Nizami Gəncəvinin pedaqoji ideyalarının tədqiqi baxımından M.Muradxanov, Y.Talıbov, S.Quliyev, Ə.Ağayev, Ş.Mikayılov, A.Abbasov, F.Sadıqov, M.Mahmudov, S.Rüstəmova və s. alimlərimiz heç də az iş görməmişlər. Psixoloq alimlərimizdən M.Abbasov, Ə.Əlizadə, Ə.Bayramov, T.Babayeva, Z.Şirinova (Cavadova) və başqa tədqiqatçılar mütəfəkkir şairin psixoloji görüşlərinin öyrənilməsinə xüsusu tədqiqatlar həsr etmiş və müəyyən nəticələr əldə etmişlər.Nizami Gəncəvinin pedaqoji irsinin Azərbaycanda tədqiqi və təbliği ilə bağlı görülən işlərin ümumiləşdirilməsində və sistemləşdirilməsində F.Rüstəmovun məqalələri maraq doğurur.

Bütün bunlarla yanaşı, Azərbaycan nizamişünasları, xüsusilə, onun pedaqoji ideyalarını tədqiq edən pedaqoqlar, dahi şairin ölməz ruhu qarşısında mənəvi borclarını yetərincə ödəyə bilməmişlər. Bunun bir sıra səbəbləri mövcuddur. Əvvəla, adları yuxarıda qeyd olunan alimlərimizin böyük əksəriyyəti öz dövrlərinin yetirmələri olduqları üçün "marksizm-leninizm" ideologiyasından kənara çıxmamış və çıxa da bilməzdilər. Məhz buna görə də, bəziləri mütəfəkkir şairi az qala "ilk kommunist", yaxud, "ateist" kimi qələmə vermək istəmişlər.

Sovet dövründə Nizami Gəncəvi, adətən, yubileydən-yubileyə, ən yaxşı halda on ildən bir yada düşmüşdür. Hərçənd ki, dahi şairin dərin ümmana bənzəyən zəngin və qüdrətli irsinin hər il yox, hər gün öyrənilməsinə böyük ehtiyac vardır. Bu ehtiyac humanist, demokratik, hüquqi cəmiyyətin yaradılmasında "insan amili"nin ön cərgədə dayandığı çağdaş dövrümüzün tələblərindən irəli gəlir. Zira, mütəfəkkir şairin bütün görüşlərinin, o cümlədən pedaqoji baxışlarının mərkəzində "Kamil insan" konsepsiyası dayanır. Həmin konsepsiyanın başlıca istiqamətindən birini məhz dahi şairin pedaqoji ideyaları təşkil edir. Doğrudur, yuxarıda qeyd etdiyimiz kimi, şairin pedaqoji ideyalarının tədqiqi sahəsində az iş görülməmişdir. Lakin indiyədək həmin ideyalar sistemli şəkildə öyrənilib ümumiləşdirilməmişdir. N.Gəncəvinin pedaqoji fikirlərinin ilk tədqiqatçısı olan M.Muradxanovun 1943-cü ildə rus dilində yazdığı "Nizaminin pedaqoji fikirləri" mövzusunda namizədlik dissertasiyası istisna olmaqla, dahi şairin pedaqoji ideyalarının sistemli öyrənilməsinə həsr olunan xüsusi

tədqiqatlar aparılmamış, ümumipedaqoji aspektdə dissertasiya işləri yazılmamışdır.

Dahi Nizami mədəniyyət tariximizin təkçə keçmişi deyil, həm də sabahı olduğu üçün onun ölməz irsini hər zaman "milli hadisə" kontekstində tədqiq və təbliğ etmək "Nizami nəsli, Nizami xalqı və milləti"(Y.Qarayev) olaraq mənəvi borcumuzdur.

Dahi Nizaminin yaratdığı ədəbi-pedaqoji irsinin hər zaman olduğu kimi, bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxladığını Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev öz nitq və çıxışlarında dəfələrlə vurğulamışdır: "Nizami bu gün də müasirimiz olaraq qalır. O özünün ölməz humanist ideyaları ilə bəşəriyyətin işıqlı gələcəyinin qurulmasında iştirak edir".Təkcə Azərbaycan və Şərq ədəbiyyatının deyil, dünya poeziyasının inkişafında misilsiz rolu olan dahi şairin ölməz irsinin dərindən öyrənilməsi qlobal miqyasda böyük aktuallıq kəsb edən problemlərdəndir.

Bütün qeyd olunanlar mövzunun aktuallığına dəlalət etməklə yanaşı, onun tədqiqi zəruriliyini də əsaslandırır. Beləliklə, problemin aktuallığını, ümumpedaqoji aspektdə doktorluq dissertasiyası səviyyəsində indiyədək tədqiq olunmadığını nəzərə alaraq, "Nizami Gəncəvinin pedaqoji ideyalar sistemi" mövzusunda dissertasiya üzərində işləməyi vacib hesab etdik.

**Tədqiqatın obyektini** Nizami Gəncəvinin ədəbi-pedaqoji irsi təşkil edir.

**Tədqiqatın predmetini** Nizami Gəncəvinin pedaqoji ideyalar sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** Nizami Gəncəvinin təhsil, təlim, tərbiyə və şəxsiyyətin formalaşması məsələləri ilə bağlı fikirlərini tədqiq edib ümumiləşdirməkdən, onun pedaqoji ideyalar sistemini müəyyənləşdirməkdir.

**Tədqiqatın vəzifələri.** Məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin həllinə çalışmışıq:

- mövzu ilə bağlı elmi-pedaqoji ədəbiyyatı təhlil edib problemin tədqiqi səviyyəsini müəyyənləşdirmək;
- şairin yaşadığı dövrü, həyatı və yaradıcılığını problem baxımdan səciyyələndirmək;
- pedaqogikanın ümumi nəzəri məsələləri ilə bağlı şairin fikir və ideyalarını öyrənib ümumiləşdirmək;
- ağıl tərbiyəsi və əxlaq tərbiyəsi haqqında Nizaminin baxışlarını tədqiq və təhlil etmək;
- şairin əmək tərbiyəsi və iqtisadi tərbiyə ilə bağlı fikirlərini öyrənib

ümumiləşdirmək;

- estetik , ekoloji,fiziki tərbiyə və hüquq tərbiyəsi məsələlərinə aid şairin fikir və ideyalarını araşdırıb təhlil etmək;
- dahi şairin pedaqoji ideyalar sistemini müəyyənləşdirmək;
- N.Gəncəvinin pedaqoji ideyalar sistemi ilə əlaqədar ümumiləşdirmələr aparmaq, müvafiq müddəalar irəli sürmək;
- şairin pedaqoji ideyalarından təlim-tərbiyə prosesində istifadənin bəzi imkan və yollarını göstərmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** pedaqoji fakt və hadisələrə dialektik yanaşma, təhsil, təlim və tərbiyəyə dair nəzəri konsepsiyalar, görkəmli nizamişürasların fundamental tədqiqatları, Azərbaycan dövlətinin təhsil, təlim, tərbiyə ilə bağlı, həmçinin, N.Gəncəvi irsinin öyrənilməsi, nəşri və təbliği ilə əlaqədar rəsmi sənədləri təşkil edir.

**Tədqiqatın mənbələri.** Tədqiqat prosesində mövzu ilə bağlı rəsmi dövlət sənədlərindən, ümummilli liderimiz H.Əliyevin və ölkə başçısının nitq və çıxışlarından,beynəlxalq və respublika elmi konfranslarının materiallarından, elmi-tədqiqat işlərindən və dahi Nizaminin mənəviyyat xəzinəsi olan “Xəmsə”sindəki pedaqoji ideyalardan elmi mənbə kimi istifadə edilmişdir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı aşağıdakı metodlardan istifadə edilmişdir: 1) tarixi-müqayisəli təhlil; 2) induktiv və deduktiv metod; 3) arxiv materiallarının, dövri mətbuat nümunələrinin və digər müvafiq elmi, ədəbi-bədii materialların öyrənilməsi.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- N.Gəncəvinin “Xəmsə”sinə daxil olan bütün poemaları müasir dövrün tələbləri ilə səsləşən əbədiyaşar pedaqoji ideyalarla zəngindir;
- o, Şərq pedaqoji fikir tarixində maarifçilik ideyasının banisidir;
- mütəfəkkir şairin pedaqoji ideyaları sistemli xarakter daşıyır; bu sistemin mərkəzində “Kamil insan” konsepsiyası dayanır;
- şairin pedaqoji baxışlarına görə təhsil, təlim və tərbiyə prosesi qarşılıqlı əlaqədə olub dialektik vəhdət təşkil edir;
- dahi şair oğlan və qızların təhsildə bərabərliyi,sinif-dərs sistemi,təlimin təkcə təhsilləndirici deyil,eyni zamanda tərbiyələndirici və inkişafetdirici funksiya daşıdığı,qarşılıqlı təlim,təlimin optimallaşdırılması, təlim prosesində müəllim-şagird əmrkdaşlığının rolu və s.kimi zamanı qabaqlayan mütərəqqi pedaqoji ideyaların ilk müəlliflərindəndir;
- öz dövrünün mütəfəkkirlərini səkkiz əsrdən çox bir zaman müddətində qabaqlayan dahi şair orta əsrlərin alimlərindən fərqli olaraq şəxsiyyətin formalaşmasında dörd amilin (irsiyyət, ictimai mühüt, tərbiyə,

əmək fəaliyyəti) hər birinin özünəməxsus rol oynadığını duymuş və "Xəmsə"də dönə-dönə qeyd etmişdir;

- şairin pedaqoji ideyalarının özəyini hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması,bu prosesdə özünütərbiyənin xüsusi rolu haqqındakı fikirləri təşkil edir;

- böyük tərbiyəçi olan Nizaminin pedaqoji ideyalar sistemində tərbiyə işinin milli pedaqogikamızın müəyyənləşdirdiyi bütün sahələri (tərkib hissələri) öz əksini tapmışdır;

- şərq ədəbiyyatında ekoloji tərbiyənin nəzəri əsaslarını təşkil edən "Təbiəti mühafizə" konsepsiyasının ilk müəllifi N.Gəncəvidir;

- pedaqogikaya dair ayrıca əsər yazmasa da, dahi Nizaminin zəngin pedaqoji ideyalar sisteminin məzmunu və genişliyi, onu Azərbaycanın ilk klassik pedaqoqlarından biri hesab etməyə əsas verir.

**Tədqiqatın elmi yeniliyi.**Tədqiqatın elmi yeniliyi birinci növbədə onunla bağlıdır ki, dahi mütəfəkkirin pedaqoji ideyalarının bütövlükdə - sistemli şəkildə, doktorluq dissertasiyası səviyyəsində öyrənilməsinə həsr olunan ilk tədqiqatdır. Dahi şairin pedaqoji ideyaları burada azərbaycançılıq ideologiyasının işığında, yeni pedaqoji təfəkkür prizmasından tədqiq olunmuşdur.

Dissertasiyada şəxsiyyətin formalaşmasına təsir edən amillər haqqında filosof-şairin fikirləri ilk dəfə geniş və əhatəli öyrənilmiş və ümumiləşdirilmişdir. Şairin ağıl tərbiyəsi, əxlaq tərbiyəsi və əmək tərbiyəsi ilə bağlı baxışları milli pedaqogikamızın nailiyyətləri baxımından yenidən və daha əhatəli tədqiq olunmuş, M.Muradxanov və başqa alimlərimizin öz tədqiqatlarında qeyd etmədikləri yeni fikirlər aşkarlanmış və ümumiləşdirilmişdir.

Tərbiyə işinin digər sahələri (tərkib hissələri): estetik, fiziki, ekoloji, iqtisadi tərbiyə və hüquq tərbiyəsi ilə bağlı şairin pedaqoji ideyaları isə ilk dəfə bu dissertasiyada geniş tədqiq olunub ümumiləşdirilmiş və sistemləşdirilmişdir.

Dahi Nizaminin pedaqoji ideyalarından humanitar fənlərin tədrisi prosesində istifadə işinin sistemli tədqiqi də tədqiqatın elmi yeniliyinə dəlalət edən cəhətlərdən biridir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dahi Nizaminin tədqiqat nəticəsində müəyyənləşdirdiyimiz pedaqoji ideyalar sistemi Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin, eləcə də tərbiyə nəzəriyyəsinin yeni müddəalarla zənginləşməsinə səbəb ola bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat aşağıdakı faktiki problemlərin həlli baxımından əhəmiyyət kəsb edir: 1) tədqiqatın material-

larından ali pedaqoji məktəblərdə "Pedaqogika", "Pedaqogika tarixi", "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kurslarının tədrisi; 2) Azərbaycanda məktəb və pedaqoji fikir tarixi oçerklərinin, "Azərbaycan pedaqoji fikir antologiyası"nın tərtibində, "Nizami Gəncəvinin pedaqoji baxışları" adlı xüsusi kursun təşkilində; 3) pedaqogika və pedaqogika tarixi üzrə proqram, dərslik və dərs vəsaitlərinin yenidən işlənilməsi və təkmilləşdirilməsində; 4) orta məktəblərdə humanitar fənlərin tədrisi prosesində və dərsdənkənar tərbiyə işlərinin təşkilində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqat işinin aprobasiyası bir neçə yolla həyata keçirilmişdir:

1. Tədqiqatin nəticələri ilə bağlı GDU-nun elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş ənənəvi konfranslarda (2002-2007), "Pedaqogikanın və psixologiyanın müasir problemləri. İnteraktiv təlim metodları və onların tətbiqi" beynəlxalq elmi konfransda (Gəncə, 2010), "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" respublika elmi konfrasında (Bakı,2012), "Ümumi orta təhsilin müasir problemləri" beynəlxalq elmi konfransında (Naxçıvan, 2012), Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş elmi konfransda (Gəncə, 2012), "Mədəniyyət Qafqazın müsbət imicinin əsas potensialıdır" beynəlxalq elmi- praktik konfransında (Pyatiqorsk, 2012), "Azərbaycanşünaslığın aktual problemləri" IV beynəlxalq elmi konfrasında (Bakı, 2013), "H.Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və memarıdır" elmi-praktik konfransında (Gəncə, 2013), "Elmin fundamental və tətbiqi problemləri" VIII beynəlxalq simpoziumunda (Moskva-Çelyabinsk, 2013), Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfrasında (Bakı, 2013) məruzə və çıxışlar edilmiş, tezislər çap olunmuşdur.

2. Gəncə Dövlət Universitetində pedaqogika nəzəriyyəsi və tarixindən mühazirələr oxumaqla, Nizami Gəncəvinin təhsil, təlim və tərbiyə ilə bağlı pedaqoji ideyaları təbliğ olunmuşdur.

3. Tədqiqatın ayrı-ayrı fəsilləri, problemlə bağlı materiallar, tədqiqatın nəticələri bütövlükdə çap olunaraq aprobasiyadan keçirilmişdir. Dissertantın problemlə bağlı iki kitabı (bir monoqrafiyası və bir dərs vəsaiti), 35 məqalə və tezisi İsveçin, Bakının, Moskvanın, Almatının, Pyatiqorskın, Stavropolun, Gəncənin, Naxcıvanın nüfuzlu jurnal və toplularında çap edilərək pedaqoji ictimaiyyətə təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, on beş yarımfəsli əhatə edən yeddi fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

**«Giriş»**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri, metodoloji əsası və metodları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılmış müddəalar, tədqiqatın aprobasiyası ilə bağlı yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Problemin qoyuluşu"** adlanır. İki yarımfəsildən ibarət olan bu fəslin ***"Elmi-pedaqoji ədəbiyyatın problem baxımından təhlili"*** adlanan birinci yarımfəslində xeyli sayda filoloji və pedaqoji istiqamətdə yazılmış elmi ədəbiyyat tədqiqata cəlb edilmişdir.

Məhz bu tədqiqatlar Azərbaycanda nizamişünaslıq məktəbinin əsasını təşkil edir. Həmin məktəbin yetirmələri hazırda onlarladı. Keçən dövr ərzində nizamişünaslığın yeni-yeni istiqamətləri yaranmış, dahi şair haqqında onlarla monoqrafiya kitab və kitabça, yüzlərlə məqalə və tezis çap olunmuşdur. Əlbəttə, onların hamısını tədqiq və təhlil etmək burada qeyri-mümkündür və tədqiqatımızın qarşısında duran vəzifə deyildir. Lakin tədqiq etdiyimiz problemlə daha çox bağlı olan elmi əsərləri qruplaşdıraraq təhlil etməyi məqsədəuyğun hesab etmişik. Həmin əsərləri aşağıdakı qruplara bölmək olar:

1. Şairin həyat və yaradıcılığına, sənətkarlıq xüsusiyyətlərinə, poeziyasının dünya ədəbiyyatı və mədəniyyətinin inkişafına təsiri məsələlərinə aid əsərlər.
2. Nizaminin fəlsəfi və psixoloji görüşlərinin öyrənilməsinə həsr olunmuş tədqiqatlar.
3. Böyük mütəfəkkirin ayrı-ayrı elm sahələri ilə bağlı baxışlarının tədqiqinə həsr olunmuş əsərlər.
4. Dahi şairin pedaqoji fikir və ideyalarının öyrənilməsinə yönəlmiş elmi əsərlər.

Birinci qrupa daxil olan elmi əsərlərin böyük əksəriyyətini şairin dövrü, həyatı və yaradıcılığının, poeziyasının sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş monoqrafiyalar, kitab və kitabçalar, sanballı elmi məqalələr təşkil edir.

Həmin əsərləri arayıb-ərsəyə gətirən tədqiqatçılardan M.M.Axundov, M.Rəfili, H.Araslı, Y.E.Bertels, M.Quluzadə, A.Rüstəmova, R.Əliyev, X.Yusifli, Y.Qarayev, Ə.Sərkəroğlu, P.Xəlilov, T.Kərimli, X.R.Ulutürk, B.Nəbiyev, Y.Neymətov, N.Araslı və başqaları öz əsərlərində şairin yaşayıb-yaratdığı dövrün ümumi mənzərəsini vermiş,

tərcümeyi-halını – həyatının başlıca məqamlarını araşdırmış, yaradıcılığının səciyyəvi xüsusiyyətlərini təhlil edərək dəyərli ümumiləşdirmələr aparmışlar.

N.Gəncəvinin bir şair kimi həyat və yaradıcılığının, sənətkarlıq xüsusiyyətlərinin, dünya ədəbiyyatı tarixindəki yeri və rolu və s. məsələlərin öyrənilməsinə həsr olunmuş, nizamişünaslıq elminin nüvəsini təşkil edən çoxsaylı elmi əsərlərin tədqiqi və təhlili göstərdi ki, həmin əsərlərin demək olar ki, hamısında müəlliflər, ötəri də olsa, onun bəzi pedaqoji ideyalarını, xüsusilə, şəxsiyyətin formalaşması, təhsil, təlim və tərbiyənin ümumi məsələləri ilə bağlı fikirlərini dəyərləndirmiş və xüsusi qeyd etmişlər.

Azərbaycanda şairin fəlsəfi və psixoloji görüşlərinin məqsədyönlü tədqiqinə XX əsrin 40-ci illərində başlanılmış, həmin tədqiqatların nəticəsində bir sıra çox dəyərli elmi əsərlər meydana gəlmişdir. İxtisasca həkim olan M.R.Abbasov "Nizaminin psixoloji görüşləri" mövzusunda xüsusi tədqiqat işi aparmış və namizədlik dissertasiyası müdafiə etmişdir.

Şairin psixoloji görüşlərinin tədqiqi sahəsində görünən işlərin sürəti XX əsrin 80-ci illərinin axırlarınadək səngimişdir. Prof. Ə.Əlizadənin qənaətinə görə, "Nizaminin psixoloji görüşlərinin tədqiqinin ikinci mərhələsi 80-ci illərin axırlarına – 90-cı illərin əvvəllərinə təsadüf edir. Bu mərhələ bilavasitə əməkdar elm xadimi, prof. Ə.S.Bayramovun adı ilə bağlıdır".

"Psixoloji nizamişünaslığın" ikinci mərhələsinin intişarında prof. Ə.Bayramovla yanaşı, prof. Ə.Əlizadənin də xüsusi xidmətləri vardır.

Görkəmli nizamişünasların demək olar ki, hamısı öz tədqiqatlarında dahi şairin eyni zamanda böyük mütəfəkkir filosof olduğunu bu və ya digər dərəcədə qeyd etmişlər. Nizami Gəncəvi yaradıcılığının Qərbi Avropadakı ən yaxşı tədqiqatçılarından biri olan Erix From çox haqlı olaraq yazır ki, Nizami cəmiyyətdən danışanda filosofdur, insandan danışanda psixoloqdur.

Müstəqilliyimizin ilk onilliyində işiq üzü görmüş fəlsəfə üzrə dərslik və dərs vəsaitlərində dahi Nizamiyə layiq olduğu qədər yer verilməməsinin günahını, əlbəttə. müəlliflərdə görmək düzgün olmazdı. Çünki Azərbaycanda Sovet hakimiyyəti illərində dahi mütəfəkkir-şairin fəlsəfi baxışları dövrün tələblərinə uyğun olaraq "marksizm-leninizm" ideologiyası baxımından birtərəfli qaydada tədqiq olunmuş,həm də kifayət qədər öyrənilməmişdir. Müstəqilliyimizin ilk illərində isə, bəzi əsərlər istisna olmaqla, dahi şairin fəlsəfi baxışlarının obyektiv, hərtərəfli və sistemli öyrənlməsinə həsr olunmuş fundamental elmi tədqiqatlar tələb olunan səviyyədə aparılmamışdır.

Ensiklopedik zəka sahibi olan şairin "Xəmsə"sində ayrı-ayrı elm sahələri ilə bağlı öz dəyərini bu gün də qoruyub saxlayan fikirləri geniş əhatə dairəsinə və dərin məzmununa, zamanı qabaqlayan mahiyyətinə görə tədqiqatçıların diqqətini özünə cəlb etmiş, ayrı-ayrı elm sahələri üzrə mütəxəssislər (N.Əbülqasımov, H.Abdullayev,L.Vəliyev, B.Budaqov, Ə.Babayev, Ə.Xəlilov, Ə.Fərəcov, R.Əkbərov, Ş.Bünyadova, S.Qurbanəliyeva və s.) həmin fikirlərin öyrənilməsinə xüsusi tədqiqat işləri həsr etmiş və müvafiq elmi əsərlər çap etdirmişlər.

Beləliklə, nizamişünaslığın müxtəlif aspektlərinin (elmi-filoloji, fəlsəfi, psixoloji və s.) tədqiqinə həsr olunmuş, birinci, ikinci və üçüncü qrup elmi əsərlərin təhlili göstərdi ki, müəlliflər qarşılarına qoyduqları vəzifələrin həlli ilə yanaşı, yeri gəldikcə, ötəri də olsa, dahi şairin bəzi pedaqoji ideyalarının, xüsusilə, şəxsiyyətin formalaşmasına təsir edən amillər haqqındakı fikirlərinin təhlilinə də müəyyən yer vermiş, dəyərli mühakimələr irəli sürmüşlər.

Pedaqoji nizamişünalığın əsasını qoyan və həmin istiqamətdə yeni tədqiqatların aparılmasına təkanverici zəmin hazırlayan M.Muradxanov qeyd olunan mövzuda namizədlik dissertasiyasını müdafiə etdikdən sonra da elmi axtarışlarını davam etdirmiş, dahi şairin pedaqoji baxışlarına həsr olunan bir monoqrafiyanın və bir neçə dəyərli elmi məqalənin çapına nail olmuşdur.

M.Muradxanovun pedaqoji nizamişünalığın inkişafında müstəsna rolunu dərin ehtiram və minnətdarlıq hissilə qeyd etməklə yanaşı, elmi həqiqət naminə demək lazımdır ki, dövrün ideoloji qadağaları və Nizami "Xəmsə"sinin həmin illərdə bədii təcrüməsinin hələ işıq üzü görməməsi ilə əlaqədar olaraq, onun dissertasiya işində, eləcə də çap olunmuş elmi əsərlərində dahi şairin pedaqoji baxışları marksizm-leninizm ideologiyası baxımından dəyərləndirilmiş və tərbiyənin ançaq üç tərkib hissəsini (əqli tərbiyə, əxlaq tərbiyəsi,əmək tərbiyəsi) əhatə etmişdir. Həm də namizədlik dissertasiyası çərçivəsində dahi şairin zəngin pedaqoji ideyalarının bütöv sistemini əhatə etmək, əlbəttə, qeyri mümkün idi.

Pedaqoji nizamişünalığın inkişafında xüsusi xidmətləri olan alimlərimizdən Y.Talıbov, S.Quliyev, Ş.Mikayılov, Ə.Ağayev, A.Abbasov, F.Sadıqov və başqaları şairin ayrı-ayrı pedaqoji ideyalarının tədqiqi və təhlilinə bir sıra dəyərli elmi əsərlər həsr etmişlər

Problemlə bağlı elmi ədəbiyyatın tədqiqi və təhlili nəticəsində müəyyən edilmişdir ki, XX əsrin 40-cı illərindən başlayaraq, nizami-şünaslığın, o cümlədən onun pedaqoji aspektinin inkişafı istiqamətində böyük iş görülmüş, xüsusi elmi tədqiqatlar aparılmış, çoxsaylı kitab və

kitabçalar, məqalə və məruzə tezisləri çap olunmuşdur. Bütün bunlarla yanaşı, indiyədək Nizami Gəncəvinin pedaqoji ideyaları sistemli şəkildə və elmlər doktoru dissetasiyası səviyyəsində tədqiq olunmamışdır.

Fəslin ikinci yarımfəsli ***"Nizami Gəncəvinin həyat və yaradıcılığının qısa səciyyəsi"*** adlanır. Yarımfəsildə göstərilir ki, dahi şairin həyat və yaradıcılığı haqqında çoxsaylı elmi əsərlərin yazılmasına baxmayaraq, onun tərcümeyi-halı haqqında mübahisələr hələ də davam etməkdədir. Bu mübahisələrə səbəb isə şairin  həyat və yaradıcılığı haqqında elmi informasiyanı özündə əks etdirən mənbələrin yox dərəcəsində olmasıdır. Məsələni qəlizləşdirən digər cəhət isə ondan ibarətdir ki, şair haqqında başlıca mənbə olan "Xəmsə"nin qədim əlyazmalarının üzü köçürülərkən bir çox təhriflərə yol verilmişdir.

İstər Azərbaycan alimləri, istərsə də dünyanın bir çox görkəmli şərqşünasları (Y.E.Bertels, Y.N.Marr, İ.Y.Kraçkovski və b.) çoxdan sübut ediblər ki, şair Gəncə şəhərində anadan olmuş, burada boya-başa çatmış və burada da dəfn olunmuşdur. Lakin bəzi  İran və erməni "alimləri" XVI əsrdə "İsgəndərnamə"nin yeni əlyazmasına artırılan və Nizamiyə heç bir adiyyəti olmayan yanlış bir beytə "əsaslanıb" onun İranın Qum şəhərində anadan olması iddiasını irəli sürmüşlər.

Bu fürsətdən istifadə edən bəzi "sapı özümüzdən olan baltalar" erməni havadarlarının fətvası ilə "Qum şəhəri" versiyasını "Qax rayonunun Qum kəndi" cəfəngiyatı ilə əvəzləmək istəyirlər.

Fikrimizcə, "Qum kəndi" versiyasının heç bir elmi məntiqə sığışmayan boş cəfəngiyat olduğunu sübut edən başlıca arqument filoloji mülahizələrdən daha çox konkret elmi faktlar ola bilər. Bizim göstərdiyimiz əsas fakt-arqument ondan ibarətdir ki, Nizami Gəncəvinin yaşayıb-yaratdığı XII əsrdə Qax rayonunun ərazisində Qum adlı heç bir yaşayış məntəqəsi mövcud olmamışdır.

"Xəmsə"yə daxil olan ayrı-ayrı poemaların tədqiq etdiyimiz problem baxımından qısa səciyyəsi göstərdi ki, böyük humanist və maarfpərvər olan Nizami Gəncəvinin dərin dəryaya bənzəyən ölməz irsi pedaqoji ideyalarla zəngindir. Həmin ideyaların bütöv sistemini müəyyənləşdirmək həm elmi-nəzəri, həm də praktik cəhətdən zəruridir.

Dissertasiyanın ikinci fəsli **"Nizami Gəncəvinin bədii irsində pedaqogikanin  nəzəri məsələləri  ilə bağlı ideyalar"** adlanır. Bu fəsil iki yarımfəsli əhatə edir. ***"Təhsil, təlim və tərbiyənin ümumi məsələləri"*** adlanan yarımfəsildə "Xəmsə"yə daxil olan bütün poemaların baş qəhrəmanlarının yalnız yüksək təhsil, təlim və tərbiyə sayəsində inkişaf edərək bir şəxsiyyət kimi formalaşması və kamillik zirvəsinə yüksələ

bilməsindən bəhs edilir. Yarımfəsildə göstərilir ki, ensiklopedik zəka sahibi olan Nizami təhsilin məzmununa həm humanitar (poetika, məntiq, müxtəlif dillər), həm təbiət (astronomiya, biologiya, kimya, coğrafiya), həm də dəqiq (riyaziyyat, həndəsə və s.) elmləri daxil etmiş, həmin elmlər üzrə dərin və hərtərəfli biliklərə yiyələnməyi təhsilin başlıca vəzifəsi hesab etmişdir.Bu yarım fəsildə konkret nümunələr əsasında sübut edilir ki,təlimin uzun əsrlər boyu başlıca təşkili forması olan "sinif – dərs sistemi" haqqında mütərəqqi pedaqoji ideyanı Şərq ədəbiyyatında və pedaqoji fikir tarixində ilk dəfə məhz dahi Nizami irəli sürmüşdür.

Mütəfəkkir şair təlim-tərbiyənin vasitə və üsulları barədə də "Xəmsə"də dəyərli, öz aktuallığını bu gün də qoruyub saxlayan fikirlər irəli sürmüşdür. Şair-pedaqoqun qəti inamına görə, həm təlimin, həm də tərbiyənin ən qüdrətli vasitələrindən biri sözdür. Sözü "insanın əzəli sirdaşı", bu dünyanın "naxışı" hesab edən şair bütün poemalarında onun tərifini, dəyərini verməklə yanaşı, söz demək qaydaları haqqında da öz tövsiyələrini qeyd etmişdir.

Məsələn, "Sirlər Xəzinəsi" poemasında "Sözün tərifi"nə ayrıca yer verən şairin fikrincə, yer üzündə qələmin vasitəsilə incilər səpən, kainatın gözünü açan, insanlara danışmağı öyrədən, düşüncəmizə, duyğularımıza qol-qanad verən, "min-min əsər bitirən" sözdür. Sözdən həm incə, kəsərli, həm də sözdən güclü həyatda heç nə yoxdur.

Mütəfəkkir şairin müəllim şəxsiyyəti, müəllim-şagird münasibətləri, təlim-tərbiyə işində müəllimin müstəsna rolu haqqındakı fikirləri də bu yarım fəsildə öz əksini tapmışdır.

***"Şəxsiyyətin formalaşmasına təsir edən amillər"*** adlanan ikinci yarımfəsildə çağdaş pedaqogikanın qarşısında duran ən aktual problemlərdən biri olan səxsiyyətin formalaşması məsələsinin "Xəmsə"də qoyuluşuna münasibət bildirilmişdir. Dahi Nizaminin şəxsiyyət haqqındakı anlayışı onun "Kamil insan" konsepsiyasında parlaq boyalarla öz əksini tapmışdır. Bu konsepsiyaya görə şəxsiyyət − hərtərəfli inkişaf etmiş, əqli zənginliyi, mənəvi saflığı və fiziki kamilliyi ilə fərqlənən insandır.

Dahi şair şəxsiyyətin formalaşmasında bir və ya iki amilin deyil, müasir elmi pedaqogikanın və psoxologiyanın xüsusi qeyd etdiyi dörd amilin (irsiyyət, mühit, tərbiyə, fəaliyyət) hər birinin özünəməxsus rol oynadığını, bu prosesdə özünütərbiyənin aparıcı mövqedə dayandığını "Xəmsə"də dönə-dönə qeyd etmiş və bu barədəki fikirlərini müvafiq nümunələrlə əsaslandırmışdır.

Tədqiqat göstərir ki, N.Gəncəvinin "tərbiyə" anlayışına həm dərin elmi biliklərin mənimsənilməsi, həm zəngin mənəvi keyfiyyətlərin

aşılanması, həm də yüksək bacarıq və vərdişlərin formalaşdırılması prosesi daxildir. Başqa sözlə desək, pedaqoji prosesin bütün tərkib hissələri (təhsil, təlim, tərbiyə, psixoloji inkişaf) mütəfəkkir şarin "tərbiyə" anlayışına daxildir. Ona görə də şəxsiyyətin formalaşmasında tərbiyə amilinin rolu haqqında şairin fikirlərini tədqiq və təhlil edərkən bu cəhəti nəzərə almışıq.

Beləliklə, pedaqogikanın ümumi nəzəri əsasları ilə bağlı dahi Nizaminin pedaqoji baxışlarının tədqiqi və təhlili göstərdi ki, şair hələ XII əsrdə həmin məsələlər haqqında müasir elmi pedaqogikanın elmi müddəaları ilə səsləşən, öz aktuallığını və əhəmiyyətini itirməyən bir çox dəyərli fikir və ideyalar irəli sürmüşdür. Həmin fikir və ideyaları belə ümumiləşdirmək olar:

- təhsil, təlim və tərbiyənin dialetik vəhdət təşkil edən vahid proses olması;
- dünyəvi elmlərin (poetika və dillər, təbiətşünaslıq, riyaziyyat, astronomiya, coğrafiya, kimya və s.) təhsilin başlıca məzmununu, dünyagörüşünün əsasını təşkil etməsi;
- təlimin təkcə təhsilləndirici deyil, eyni zamanda tərbiyələndirici və inkişafetdirici funksiya daşıması;
- həm təlimin, həm də tərbiyənin ən qüdrətli vasitəsi sözdür; söz yüz ölçülüb bir biçiləndə, yerində və vaxtında deyiləndə maraqla dinləniləndə daha böyük təsir gücünə malik olur, əks təqdirdə, xeyirdən çox zərər yetirir;
- təlim və tərbiyənin insana təsirin başlıca üsulları öyüd-nəsihət, məsləhət, göstəriş, nümunə, çalışma, faydalı işə, halal zəhmətə cəlbetmə, alışdırma, inandırma, əxlaqi söhbət, tərbiyələndirici situsaiyanın yaradılması, müsahibə, dialoq olması;
- təlim-tərbiyə işində qarşılıqlı təlimin böyük əhəmiyyət kəsb etməsi;
- təlimin optimallaşdırılması yolu ilə az müddətdə çox bilik qazanılmasının mümkünlüyü;
- təlim-tərbiyə işində, kamil insanın formalaşdırılmasında dərin elmi dünyagörüşə və yüksək mənəviyyata malik olan, öz şagirlərini bir ata kimi sevən, fədakarcasına çalışan müəllimin müstəsna rol oynaması;
- təlim müvəffəqiyyətinin təkcə müəllimdən deyil, təlimdə əməkdaşlıqdan, müəllim-şagird münasibətlərinin səmimiliyndən, şagirdin təlimə böyük həvəsi və idrak marağından asılılığı;
- şəxsiyyətin – hərtərəfli inkişaf etmiş kamil insanın formalaşmasında irsiyyət, mühit, tərbiyə (pedaqoji proses) və fəaliyyət amillərinin hər birinin özünəməxsus rol oynaması.

Dissertasiyanın "**Nizami Gəncəvi dünyagörüşün formalaşdırılması, ağıl tərbiyəsi və əxlaq tərbiyəsi məsələləri haqqında**" adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. ***"Dünyagörüşünün formalaşdırılması məsələləri"*** adlı birinci yarımfəsildə dahi Nizami təbiət, cəmiyyət və təfəkkür hadisələrinə hansı prizmadan baxmışdır? Onun dünyagörüşündə hansı baxışlar üstünlük təşkil edir? "Xəmsə"dəki qəhrəmanlar təlim prosesində dünyagörüşünün hansı növünə yiyələnirlər? və s.suallara cavabları müəyyən edilmişdir. Dissertasiyada "Xəmsə"nin fəlsəfi aspektdə tədqiqi və təhlili göstərmişdir ki, dahi Nizami dünyanın Allah tərəfindən yaradıldığını qəbul etsə də, ortadoksal dini görüşlərlə razılaşmamış, obyektiv gerçəkliklə bağlı məsələlərə − təbiət, cəmiyyət və təfəkkür hadisələrinə elmi nöqteyi-nəzərdən yanaşmış və dərin elmi-materialist dünyagörüşə malik olmuşdur.

Şairin həm təbiət, həm cəmiyyət, həm də idrak proseslərinə dialektik materializm nöqteyi-nəzərindən yanaşdığını sübut edən faktlardan biri də odur ki, o, kainatda hər şeyin daimi hərəkətdə, inkişafda və dəyişmədə olduğunu dərk etmiş, "Xəmsə"də həmin məsələlərlə bağlı fikirlərini dönə-dönə şərh etməyə çalışmışdır.

Bütün bunlarla yanaşı kainatın necə yaranması haqqında qədim yunan filosoflarının fikirlərini inkişaf etdirən dahi Nizami belə qənaətə gəlir ki, hər şeyi, o cümlədən, insan əqlini Allah yaratmışdır. Əqlin mahiyyətindən başqa hər şeyi insan öz əqlinin gücü ilə dərk edə bilər: bu şərtlə ki, insan onları dərk etməyə qadir olsun, yəni kamil şəxsiyyət – dərin elmi dünyagörüşə malik olsun.

Müasir elmi pedaqogika dünyagörüşün formalaşmasında dahi şairin önəm verdiyi həm təbiət, həm cəmiyyət, həm də təfəkkürə aid fənlərin böyük rol oynadığını təsdiqləyir.

Fəslin ***"Ağıl tərbiyəsi N.Gəncəvi yaradıcılığında tərbiyənin tərkib hissələrindən biri kimi"*** adlanan ikinci yarımfəslində müəyyənləşdirilir ki, ağıl tərbiyəsi ilə bağlı fikirlər onun pedaqoji görüşləri sistemində önəmli yer tutur.

Ağıl tərbiyəsini tərbiyənin ən ümdə sahələrindən biri hesab edən Nizami Gəncəvi müasir elmi pedaqogikadan səkkiz əsr əvvəl göstərmişdir ki, əqli tərbiyənin başlıca vasitəsi təlimdir. Şairə görə, təlim dərin bilikləri mənimsətməklə əqli zənginləşdirir, "qəlbə nur", "ürəyə qüvvət" verir, eyni zamanda insanın əxlaqını saflaşdırır, onun mənəviyyatını yüksəldir. Təlim sayəsində korafəhim adamlar belə "iqlimlər qazısı" səviyyəsinə yüksələ bilər. Bütün bunlar göstərir ki, şair-pedaqoq ağıl tərbiyəsi ilə tərbiyənin digər tərkib hissələri, xüsusilə, əxlaq tərbiyəsi arasında sıx qarşılıqlı əlaqəni

aydın görmüş və ona görə də tərbiyə işinin hərtərəfli aparılmasını zəruri saymışdır.

Elmi dünyagörüşün formalaşdırılması və onun cəmiyyətin, ölkənin həyatında rolu, ağıllı-kamallı insan tərbiyəsi və ağıl tərbiyəsinin bir çox digər məsələləri haqqında böyük tərbiyəçinin əsas fikirləri müasir elmi-pedaqoji nöqteyi-nəzərdən dissertasiyada geniş tədqiq və təhlil edilmiş sistemə salınmışdır.

Fəslin ***"İnsanın formalaşmasında əxlaq tərbiyəsinin rolu"*** adlanan üçüncü yarımfəslində dahi şairin pedaqoji görüşlərində onun əxlaq və əxlaq tərbiyəsi haqqındakı fikirlərinə xüsusi diqqət yetirilmiş və daha geniş yer verilmişdir. Müəyyən edilir ki, insanın əxlaqi saflığı uğrunda mübarizə aparan Nizami Gəncəvi bütün əsərlərində bu işə xidmət edən dahiyanə fikir və ideyalar söyləmişdir. Ondan sonra gələn şair və yazıçıların, filosof və pedaqoqların böyük əksəriyyəti həmin fikir və ideyalardan bəhrələnmiş, onları daha da inkişaf etdirmişlər. Şairin əxlaq və əxlaq tərbiyəsi ilə bağlı hikmət dolu fikirləri onun "kamil insan" konsepsiyasının mühüm tərkib hissəsini təşkil edir. Bu konsepsiyaya görə hərtərəfli inkişaf etmiş kamil insan ilk növbədə əqli zənginliyi və əxlaq saflığı ilə fərqlənməlidir.

"Xəmsə"nin yeni pedaqoji təfəkkür baxımından tədqiqi göstərir ki, dahi Nizaminin dünyagörüşündə əxlaq, M.Muradxanovun qələmə aldığı kimi, heç də sinfi xarakter daşımır. "Dərin humanizm" və "bütün bəşəriyyətə ehtiraslı məhəbbəti" ilə müasirlərindən fərqlənən Nizami Gəncəviyə görə insanın əxlaqi keyfiyyətləri heç də onun sinfi mənşəyindən, vəzifəsindən, irqindən, etnik mənsubiyyətindən və cinsindən asılı deyildir. Bu fikri təsdiqləyən başlıca arqument budur ki, dahi şairin "Xəmsə"də yaratdığı və yüksək əxlaqi keyfiyyətləri ilə fərqlənən müsbət qəhrəmanlar içərisində vəzifəsizlərin, müxtəlif millətlərin, irqlərin nümayəndəsinə eyni dərəcədə, eyni "ampulada", eyni məfhum ("İnsan") altında rast gəlirik: "Sirlər xəzinəsin"dəki kərpickəsən qocadan "İsgəndərnamə"dəki makedoniyalı İsgəndərədək; Şirin və Leylidən misirli Mariyəyədək və s.

İnsanı "dünyanın əşrəfi", "xeyirxahlıq bütü", insanpərvərliyi isə "insanlığın parlaq gövhəri" adlandıran humanist şair, bu anlayışı ("insanpərvərlik" anlayışını) xeyirxahlıq və yaxşılıq məfhumları ilə sıx qarşılıqlı əlaqədə verir.

Mütəfəkkir şair-pedaqoqun əxlaqi görüşləri sistemində mühüm yer tutan mənəvi keyfiyyətlərdən biri də milli-mənəvi dəyərlərimizdən sayılan namuslu olmaqdır. Şairin sevə-sevə yaratdığı müsbət qəhrəmanların hamısı, xüsusilə, Şirin, Leyli, Nüşabə özünün ağlı, kamalı ilə yanaşı, həm də arı-

namusu, isməti, abır-həyası ilə fərqlənir

Müdrik şair-filosof və böyük müəllim, tərbiyəçi olan N.Gəncəvi müsbət əxlaqi keyfiyyətləri təqdir, təlqin və təbliğ etməklə yanaşı, mənəvi eybəcərliklərə, mənfi əxlaqi sifətlərə qarşı barışmaz mübarizə aparmışdır. Şairin daha çox nifrət bəslədiyi mənfi əxlaqi sifətləri aşağıdakı kimi qruplaşdırmaq olar: paxıllıq; yalançılıq; hərislik və xəsislik; xudpəsəndlik; lovğalıq; tamahkarlıq; ikiüzlülük; haqsızlıq; satqınlıq; vicdansızlıq; qəddarlıq; tənbəllik və s.

Dissertasiyanın **"Nizami Gəncəvinin əsərlərində əmək tərbiyəsi və iqtisadi tərbiyə ilə bağlı ideyalar"** adlanan dördüncü fəsli də iki yarımfəsildən ibarətdir. ***"Nizami Gəncəvinin yaradıcılığında əmək tərbiyəsinin yeri"*** adlanan birinci yarımfəsildə dahi şairin əsərlərində əmək tərbiyəsi ilə bağlı ideyaları, gənclərin psixoloji və əməli cəhətdən zəhmətə hazırlanması, habelə əmək mədəniyyəti vərdişlərinin aşılanması fikirləri təhlil olunaraq üzə çıxarılmışdır.

Dahi şair "Xəmsə"yə daxil olan poemalarında birinci növbədə sadə əmək adamlarının halal zəhmətini, onların cəfakeşliyini, fədakarlığını, hünərini, mərdliyini, cəsarətini, xeyirxahlığını dönə-dönə, sevə-sevə vəsf etmişdir. Lakin buradan "sovet" dövründə olduğu kimi, belə bir yanlış nəticə çıxarılmamalıdır ki, guya Nizami Gəncəvi "əməyə kommunist münasibəti" bəsləyərək yalnız fiziki əməyin (əkinçi, çoban, baftaçı, bənna, kərbickəsən, daşyonan, boyaçı, dulusçu, toxucu və s.) tərəfdarı olmuş və həmin əmək növləri ilə məşğul olanları tərənnüm etmişdir. "Xəmsə"nin yeni pedaqoji təfəkkür baxımından tədqiqi və təhlili göstərir ki, dahi şair bütün poemalarında fiziki əmək növləri ilə yanaşı, zehni əmək fəaliyyətini, xüsusilə, filosofların, alimlərin, təbiblərin, memarların, rəssamların, mühəndislərin, musiqiçilərin, müəllimlərin əməyini də çox yüksək qiymətləndirmişdir. Hətta sevimli oğlu Məhəmmədə nəsihətində şair məsləhət görür ki, özünə peşə seçərkən "sənətin çox rütbəsi" olsa da, "həyatda faydalı bir elm" axtarıb ya din elmi ilə məşğul olan fəqih, ya da təbabət elmini yaxşı bilən həkim olmağa çalışsın.

Fəslin ***"İqtisadi tərbiyə şəxsiyyətin formalaşdırılmasında əsas vasitələrdən biri kimi"*** adlanan ikinci yarımfəslində "Xəmsə"də iqtisadi tərbiyə məsələləri ilə bağlı fikir və ideyalar tədqiqata cəlb olunur.

"Xəmsə"nin yeni iqtisadi təfəkkür baxımından araşdırılmaı göstərdi ki, şair iqtisadi tərbiyə ilə bağlı məsələlərə demək olar ki , bütün poemalarında müəyyən dərəcədə toxunmuş , müvafiq fikirlər söyləmiş , ağıllı məsləhətlər vermişdir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki , ömrü boyu qənaətlə dolanan şair iqtisadi tərbiyədə başlıca amil olan

qənaətçilliyə daha böyük önəm vermiş insanları bu ruhda tərbiyələndirməyə çalışmışdır . Digər formalarında qənaətçilik məsələsinə ötəri də olsa toxunan şair ,"Leyli və Məcnun "dab u məsələ üzərində xüsusi dayanmışdır. Həmin poemanın "Şadlıq və qənaət " adlı hekayəsində şair insanları qənaətçilikdə digər canlılardan nümunə götürməyə çağırır və göstərir ki, insanlardan başqa bütün canlılar "qənaət evində "qərar tutmuşdur.Yəni hər bir canlı nə ruzi tapsa onunla qənaətlə dolanır.Ancaq qənaətcil olmayan acgöz insanlar öz payından şikayət edir , tanrıdan , təbiətdən , hətta , günəşdən narazılıq edirlər.Yarım fəsildə şairin iqtisadi tərbiyə ilə bağlı digər məsələlər ( əkinçilikdə məhsuldarlığın yüksəldilməsinin əsas şərtləri , əhaliyə iqtisadi kompensasiyanın verilməsi , iqtisadi həvəsləndirmə və stimullaşdırma və s.) haqqında fikirləri də tədqiq və təhlil edilmişdir.

Dissertasiyanın beşinci fəsli **"Nizami Gəncəvinin əsərlərində estetik və ekoloji tərbiyə məsələləri"** adlanır. Fəsil ***"Nizami Gəncəvinin estetik tərbiyə haqqında fikirləri"*** və ***"Nizami Gəncəvi ekoloji tərbiyənin mahiyyəti haqqında"*** adlanan iki yarımfəsildən ibarətdir. ***"Nizami Gəncəvinin estetik tərbiyə haqqında fikirləri"*** altında "Xəmsə"də əks olunmuş estetika və estetik tərbiyə məsələləri ilə bağlı fikirlər üzə çıxarılmış, təhlil olunaraq ümumiləşdirilmişdir. Tədqiqatdan aydın olur ki, dahi Nizami özünün "kamil insan" konsepsiyasına sadiq qalaraq, gözəllik anlayışına da hərtərəfli yanaşmış, ideal gözəlliyə malik obrazlar silsiləsi yaratmağa nail olmuşdur.

N.Gəncəvinin estetik təfəkkürünün məhsulu olan Məcnun, Leyli, Şirin, Xosrov, Fərhad, Nüşabə, İsgəndər və yeddi gözəlin hər biri təkcə zahirən gözəl deyil, onların ağlı, əxlaqı, davranışı, abır-həyası, ədası, bir sözlə, bütöv mənəviyyatı gözəldir. Onun yaratdığı ideal gözəlliyə malik əbədiyaşar obrazlar ulu şairin yüksək estetik zövgündən, zəngin estetik təfəkkürünün ali inkişaf səviyyəsindən xəbər verir.

Dahi şair-pedaqoqun estetik baxışları sistemində insan gözəlliyi mərkəzi yer tutur. Şairin bütün poemalarında neçə-neçə gözəl insan obrazlarına rast gəlirik. Həm də burada təkcə əsərin baş gəhrəmanları, şahlar, hökmdarlar, yüksək mənsəb sahibləri deyil, eyni zamanda ən sadə xalq nümayəndələri gözəl insan kimi sevilə-sevilə vəsf olunur. Şairin yaratdığı gözəl insan obrazlarının hər biri özünün zahiri-cismani gözəlliyi ilə daxil-mənəvi gözəlliyinin sıx vəhdət təşkil etməsi ilə səciyyələnir.

Yarım fəsildə şairin estetik tərbiyənin əsas vasitələri :təbiət , musiqi , rəqs , incəsənət əsərləri və s. haqqındakı dəyərli də ümumiləşdirilmişdir.

Fəslin ***"Nizami Gəncəvi ekoloji tərbiyənin mahiyyəti haqqında"***

adlanan yarımfəslində göstərilir ki, N.Gəncəvinin əsərlərində tərbiyənin digər sahələri ilə yanaşı, ekoloji tərbiyə məsələləri də mühüm yer tutur. Dahi Nizami təbiəti dərin məhəbbətlə sevməklə bərabər, həm də onun sirlərinə dərindən bələd olmağa çalışan təbiətşünas alim-filosof olmuşdur.

Ulu şairin təbiəti mühafizə konsepsiyasının bünövrəsi onun birinci poeması olan "Sirlər xəzinəsi"ndə qoyulmuş, sonrakı əsərlərində inkişaf etdirilmiş və yeni-yeni ideyalarla zənginləşdirilmişdir. Mütəfəkkir şair-pedaqoqun təbiəti mühafizəyə dair dəyərli fikir və ideyalarına bütün poemalarında rast gəlirik.

Lakin "Leyli və Məcnun" poemasında təbiəti mühafizə ilə bağlı şairin fikirləri daha geniş və dərin məna kəsb etməsi, praqmatik xarakter daşıması ilə diqqəti cəlb edir. Belə ki, "Sirlər xəzinəsi" poemasında təbiəti qorumagın zəruriliyini insanlara başa salmağa çalışan şair, "Leyli və Məcnun"da bununla yanaşı, təbiətə qayğıkeş münasibət bəsləməyi tövsiyə və tələb edir, Məcnun obrazı vasitəsi ilə bu sahədə əyani nümunə göstərir.

Dissertasiyanın altıncı fəsli **"NizamiGəncəvi yaradıcılığındafiziki tərbiyə və hüquq tərbiyəsi ilə bağlı ideyalar"** adlanır. Fəslin ***"Fiziki tərbiyə və sağlamlıq haqqında ideyalar"*** adlanan birinci yarımfəslində fiziki tərbiyənin müasir mahiyyəti baxımından şairin ideyaları təhlil olunur.

Mütəfəkkir şairin "kamil insan" konsepsiyasına görə, hər bir bəşər övladı hərtərəfli inkişaf etməli, həm əqli cəhətdən zəngin, həm mənəviyyatca saf və təmiz, həm də fiziki cəhətdən sağlam və möhkəm olmalıdır. O, fiziki sağlamlığın əhəmiyyətini çox yüksək qiymətləndirərək göstərirdi ki, insanın cismani cəhətdən sağlam və möhkəm olması onun əqli və əxlaqi inkişafına da müsbət təsir göstərir.

Heç bir şübhə yoxdur ki, şairin "kamil insan" konsepsiyasının zirvəsində İsgəndər obrazı dayanır. İsgəndəri peyğəmbərlik məqamına qaldıran şair eyni zamanda onun fiziki güc və qüdrətini qabarıq nəzərə çatdırır. Belə ki, İsgəndər hələ beşikdə ikən "meydan axtarır", "yəhərə atılır", "qılınc vurmağı", "qızmış aslanlara qarşı durmağı", "at minmək zövqündən ləzzət almağı" xoşlayır və bütün bunları öyrənir. Şahlıq taxtına oturanda fiziki kamilliyi, gücü və cəsarətilə hamıdan üstün olan İsgəndərlə savaşa girməyə heç kim cürət etmir. "Ömrü başa vurar şir ürəklilər, öküz ürəklidə olmaz bir hünər", − deyən şairin fiziki bacarıq və keyfiyyətlər icərisində böyük önəm verdiyi cəhətlərdən biri hünər göstərmək və cəsarətli olmaqdır.

Bütün poemalarında fiziki bacarıq və keyfiyyətlərin əhəmiyyətini və insanın sağlamlığı üçün zəruriliyini dönə-dönə qeyd etməklə bərabər, şair onların aşılanmasının bəzi yollarını da göstərmişdir. Bu baxımdan

“Yeddi gözəl” poemasında “Bəhramın öz kənizi ilə macərası” adlı hekayə fikrimizə parlaq misal ola bilər. Fiziki tərbiyənin müasir nəzəriyyəsi və praktikasına görə, sağlamlığın və orqanizmin möhkəmliyinin başlıca amillərindən biri qidalanma və yuxu rejiminə düzgün əməl etməkdir. Dahi şair hələ səkkiz əsr yarım bundan əvvəl təbabət elminin sirrinə dərindən bələd olan bir həkim kimi bu cəhətə xüsusi diqqət yetirmiş və demək olar ki, bütün poemalarında müvafiq tövsiyələr vermişdir.

Orqanizmin möhkəmliyinə və fizikin sağlamlığına ciddi zərər yetirən amillərdən şair: sərxoşluğu , bədbinliyi , əsəbiliyi , qəm-qüssəni xüsusi vurğulamış , insanları həmin zərərli vərdişlərdən uzaq qaçmağa , sağlam və şən əhvali-ruhiyyəli , nikbin həyat tərzinə can atmağa səsləmişdir. Fiziki sağlamlığın başlıca vasitələrindən təbii amillər də mütəfəkkir şairin diqqətindən kənarda qalmamış , həmin amillərdən səmərəli istifadəyə dair dəyərli tövsiyyələrini vermişdir.

Altıncı fəslin ikinci yarımfəsli ***“N.Gəncəvi yaradıcılığında hüquq tərbiyəsinin yeri”*** adlanır. Bu yarımfəsildə Nizami Gəncəvinin hüquq tərbiyəsi, xüsusilə haqq-ədalət, qanunçuluğa hörmət edilməsi məsələləri ilə bağlı həmişəyaşar ideyaları geniş tədqiqata cəlb olunmuşdur. Şair başa salmağa çalışır ki, hər bir şah birinci növbədə müqəddəs olmağa səy göstərməlidir. Çünki müqəddəslik özü bir şahlıqdır. Müqəddəslik qazanmaq istəyən şah “ədalət sahibi” olmalı, bunu öz məsləkinə çevirməlidir. Məslək insan üçün həm “batman qızıldı, həm də daşqaşdı”. Xalqa haqsızlıq edib ona zülm etməyin cəzası çox ağırdır. Ölkəni ancaq ədalətlə, qanunçuluğa əməl etməklə abad etmək olar.

Dahi şair “ədalətli cəmiyyət” konsepsiyasına sadiq qalaraq, həmin konsepsiyanın tərkib hissəsi olan “Sirlər xəzinəsi”ndə irəli sürülən “ədalətli hökmdar” ideyasını digər poemalarında inkişaf etdirir və sonuncu poemasında İsgəndər obrazında ən yüksək zirvəyə qaldırır. Əksər tarixi mənbələrdə Makedoniyalı İsgəndərin işğalçı, qəddar bir sərkərdə, zalım hökmdar kimi qələmə verildiyinə baxmayaraq, böyük humanist şair onu “ideal hökmdar”, hətta, peyğəmbər səviyyəsinə qaldırmış, öz zəmanəsinin şahlarını, sultanlarını, dövlət məmurlarını İsgəndərdən nümunə götürməyə çağırmışdır.

Yarım fəsildə konkret misallar əsasında müəyyən edilmişdir ki , haqq-ədalət carşısı olan şairin hüquq tərbiyəsi ilə bağlı baxışlar sisteminin mərkəzində qanunçuluğa hörmət edilməsi , kimliyindən asılı olmayaraq cinayət edən hər bir kəsin layiqli cəza alması , öz cinayətini etiraf edib dərindən peşmançılıq hissi keçirənlərin bağışlanılması ,qanunçuluğa hörmət edilməsində dövlət məmurlarının nümunə olmasının zəruriliyi və s.

haqqında fikirlər dayanır.

Disseratsiyanın yeddinci fəsli **"Pedaqoji prosesdə Nizami irsindən istifadə işinin sistemi"** adlanır. Bu fəslin ***"Humanitar fənlərin tədrisi prosesində N.Gəncəvinin pedaqojiideyalarından istifadənin imkan və yolları"*** adlanan birinci yarımfəslində müxtəlif tədqiqat üsulllarından istifadə edilərəkdahi Nizaminin ölməz fikir və kəlamlarından pedaqoji prosesdə tərbiyə vasitəsi kimi istifadə işinin mövcud səviyyəsinin aşağı olduğu sübut olunur. Bu iş ali məktəblərdə xüsusilə çox zəif aparılır. Orta məktəblərdə isə, bəzi qabaqcıl ədəbiyyat müəllimlərinin bu sahədəki müsbət təcrübəsi istisna olmaqla, bu iş sistemsiz və qeyri-ardıcıl xarakter daşıyır, demək olar ki, yalnız ədəbiyyat fənninin tədrisi prosesini əhatə edir. Halbuki, digər humanitar fənlərin (tarix, iqtisadi coğrafiya, xarici dillər, musiqi, təsviri incəsənət və s.) tədrisi prosesində də dahi Nizaminin qüdrətli poeziyasından tərbiyə vasitəsi kimi istifadənin geniş imkanları mövcuddur.

Dissertasiyada sübut olunur ki, uşaq bağçasının böyük qruplarında N.Gəncəviyə həsr olunan şeirlərin, eləcə də "Sirlər xəzinəsi" poemasındakı hekayələr əsasında uşaqlar üçün hazırlanmış bədii parçaların, nağılların öyrədilməsi mümkün və əhəmiyyətlidir.Məktəbəqədər yaşlı uşaqlar və ibtidai sinif şagirdlərinə N.Gəncəvini sevdirməyin vasitələrindən biri dahi şairin əsərlərinin motivləri əsasında çəkilmiş cizgi filmləri və kukla teatrının tamaşalarıdır. İKT-nin artıq ucqar kənd məkrəblərinə də yol açdığı indiki zamanda bu vasitədən həm dərs prosesində , həm də dərsdənkənar vaxtlarda istifadə oluna bilər.

Məlum həqiqətdir ki, orta məktəblərdə humanitar fənlər içərisində Nizami irsinin öyrənilməsi və öyrədilməsi baxımından birinci yerdə ədəbiyyat fənni dayanır. Lakin aparılan məqsədyönlü müşahidələr göstərmişdir ki, bəzi qabaqcıl iş təcrübəsinə malik olanlar istisna olmaqla, ədəbiyyat müəllimləri öz dərslərində N.Gəncəvini yalnız bir şair kimi öyrədir və onun haqqında ancaq mövcud dərsliklərdə öz əksini tapmış bilikləri mənimsətməyə çalışırlar. Halbuki, Nizami dahi şair olmaqla yanaşı, böyük mütəfəkkir-filosof, ensiklopedik biliyə malik alimdir. Onun əsərlərində həm humanitar ,həm də təbiət-riyaziyyat elmləri ilə bağlı çox dəyərli fikirlər, zamanı əsrlərlə qabaqlayan mütərəqqi ideyalar kifayət qədərdir.

Aparılan tədqiqat göstərir ki, dahi şairin ayrı-ayrı əsərlərinin dərindən öyrənilməsi, həmin əsərlərdəki tərbiyəvi cəhətlərin tam üzə çıxarılması baxımından müasir təlim texnologiyaları və interaktiv metodlar əsasında hazırlanan təqdimatlar böyük təlim-tərbiyə əhəmiyyəti kəsb etməklə yanaşı, şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin, müstəqil düşünmək və işləmək bacarıqlarının inkişafına güclü təkan verir. Ədəbiyyat

dərslərində dahi şairin şəxsiyyətinə və sənətinə məhəbbət hissinin aşılanması, həyat və yaradıcılığı barədə mövcud biliklərin genişləndirilməsi və daha da möhkəmləndirilməsi yollarından biri də Azərbaycanın digər şair və yazıçılarının yaradıcılığı ilə bağlı mövzuları tədris edərkən onların N.Gəncəvi haqqındakı əsərlərinə xüsusi diqqət yetirmək, həmin əsərlərdəki Nizami obrazının təhlilini təşkil etməkdir

Məlum olduğu kimi, tarix dərsliklərində XII – XIII əsrlərdə Azərbaycanın mədəniyyət tarixinə dair mövzularda N.Gəncəviyə də müəyyən yer verilmişdir. Həmin mövzuların tədrisi zamanı müəllim dərslikdə verilmiş qısa məlumatla kifayətlənməməli, son dövrlərdə aparılan elmi axtarışların nəticəsi kimi meydana gələn elmi əsərlərdən istifadə edərək, N.Gəncəvinin Azərbaycan mədəniyyətini öz poeziyası ilə zənginləşdirən korifey şair olmaqla bərabər, böyük mütəfəkkir alim, filosof, pedaqoq və psixoloq olduğunu da şagirdlərə çatdırmalıdır.

Tarix dərslərində N.Gəncəvinin şagirdlərə sevdirilməsinin və onun zəngin irsinin tərbiyələndirici qüdrətindən istifadənin yollarından biri də dahi şair haqqında görkəmli şəxsiyyətlərin, ictimai və dövlət xadimlərinin fikirlərindən, dövlət sənədlərindən, rəsmi məlumatlardan istifadə etməkdir. N.Gəncəvi haqqında ən yüksək fikirlər söyləyən, onun xatirəsinin əbədiləşdirilməsi, irsinin dərindən öyrənilib dünya miqyasında tanıdılması üçün dövlət səviyyəsində nəhəng işlər görən məhz, Azərbaycan mədəniyyətinə və incəsənətinə hər zaman böyük qayğı göstərən Ümumilli Liderimiz H.Əliyev olmuşdur.

Tarix dərslərində dahi şairin irsini dərindən öyrənmək, onun şəxsiyyəti və sənəti haqqında daha müfəssəl məlumat verməklə N.Gəncəvinin eyni zamanda böyük tarixçi alim olduğunu sübut etmək yollarından biri "Xəmsə"də təsvir olunan tarixi hadisələrin və tarixi şəxsiyyətlər haqqında bədii materialların real tarixi faktlarla müqayisəli öyrədilməsidir. Bu baxımdan onun yaradıcılığının "şah əsəri" hesab olunan "İsgəndərnamə" poemasında daha geniş elmi-bədii material vardır.

Məlumdur ki, Azərbaycanın iqtisadi və sosial coğrafiyası kursunda ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarının və iri şəhərlərinin öyrədilməsinə geniş yer verilir. Fənn proqramının (kurikulumun) verdiyi bu imkandan istifadə edən müəllim, Gəncə-Qazax iqtisadi rayonunun tədrisi zamanı bu rayonun ən böyük, respublikamızın isə ikinci şəhəri olan Gəncə haqqında məlumat verərkən onun qədim mədəniyyət mərkəzi olması faktı üzərində xüsusi dayanmalı, bu şəhərin dünya miqyasında elm və mədəniyyət mərkəzi kimi tanınmasında N.Gəncəvinin əvəzsiz rolu olduğunu önə çəkməlidir. Coğrafiya dərslərində N.Gəncəviyə, onun ölməz poeziyasına mə-

həbbət hissinin aşılanması yollarından biri də şairin adını daşıyan coğrafi adlar, eləcə də "Xəmsə"də rast gəlinən toponimlər haqqında müvafiq mövzuların tədrisi prosesində yığcam məlumat və qısa şərhlər verməkdir.

Dahi şairin irsini öyrətmək və onu şagirdlərə sevdirmək baxımından geniş imkanlara malik humanitar fənlərdən biri də Musiqidir.

Musiqi dərslərində dahi Nizamini həm dahi şair, həm də bir musiqişünas alim kimi şagirdlərə sevdirməyin imkan və yolları geniş və müxtəlifdir. Apardığımız müşahidələr, müsahibələr, anket sorğuları və qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilməsi əsasında Musiqi dərslərində dahi şairin ədəbi-mədəni irsindən, o cümlədən musiqiyə dair dəyərli fikirlərindən istifadənin aşağıdakı imkan, vasitə və yolları müəyyənləşdirilmişdir:

1. Musiqi tarixinə və nəzəriyyəsinə dair biliklərin öyrədilməsi prosesində N.Gəncəvinin əsərlərindən elmi mənbə kimi istifadə olunması. Xüsusilə muğamlar haqqında nəzəri biliklər verərkən ayrı-ayrı muğamlarımızın xüsusiyyətləri, incəlikləri barədə N.Gəncəvinin dəyərli fikirlərindən istifadə etmək faydalıdır. Belə muğamlara "Rast", "Hisar", "İraq", "Mahur", "Nəva", "Rəhab" və s. misal göstərmək olar.

2. Musiqi alətləri haqqında nəzəri bilikləri öyrədərkən qədim alətlər barəsində N.Gəncəvinin verdiyi məlumatlardan müqayisəli təhlil vasitəsi kimi istifadə etmək.

3. N.Gəncəvinin sözlərinə bəstələnmiş mahnıların və digər musiqi əsərlərinin öyrədilməsi zamanı şairin həyatı və yaradıcılığı barədə qısa məlumatlar vermək.

4. Dahi şairə həsr olunmuş musiqi əsərlərinin öyrədilməsi zamanı onun həyat və yaradıclığı barədə yığcam məlumatların verilməsi.

Dissertasiyada konkret nümunələr əsasında sübut edilmişdir ki, istər musiqi, istərsə də təsviri incəsənət dərslərində dahi şairin zəngin irsindən həm tərbiyə, həm əyanilik vasitəsi kimi istifadənin imkanları geniş, əhəmiyyəti isə əvəzsizdir.

Dissertasiyanın yeddinci fəslinin ikinci yarımfəsli ***"Nizaminin pedaqoji fikirlərindən dərsdənkənar tədbirlərdə istifadə tərbiyə vasitəsi kimi"*** adlanır. Bu yarımfəsildə sübut olunur ki, dahi şair-pedaqoqun təhsil, təlim, tərbiyə və şəxsiyyətin inkişafı ilə bağlı hikmət dolu fikirləri o qədər zəngin, geniş və dərindir ki, onları təkcə ayrı-ayrı fənlərin tədrisi prosesində − dərslərdə tələb olunan səviyyədə öyrənmək və öyrətmək qeyri-mümkündür. Ona görə də bu zəngin irsə dərsdənkənar işlər və tərbiyəvi tədbirlər prosesində tez-tez müraciət etmək vacibdir.

N.Gəncəvi irsini öyrənmək və öyrətmək, onun hikmət dolu kəlam-

larından tərbiyə vasitəsi kimi istifadə etmək baxımından dərsdənkənar işləri iki qrupa bölmək olar:

a) ayrı-ayrı fənlərin tədrisi ilə bağlı dərsdənkənar (sinifdənxaric) işlər.

b) dərsdənkənar tərbiyəvi tədbirlər.

Birinci qrupa daxil olan işlər içərisində əsas yeri ibtidai siniflərdə oxu təlimi, yuxarı siniflərdə isə ədəbiyyat, coğrafiya, tarix, və s. fənlər üzrə sinifdənxaric oxunun təşkili tutur. İbtidai siniflərdə tərbiyəvi mövzulara aid oxu materiallarını öyrədərkən dahi şairin müvafiq əsərlərindən şeir parçalarının sinifdənxaric oxusunu təşkil etmək mümkün və zəruridir.

İkinci qrupa daxil olan dərdənkənar tərbiyə işlərinin forma və yolları çox müxtəlif olub geniş əhatə dairəsinə malikdir. Şairin zəngin irsini şagirdlərə sevdirməyin başlıca yollarından biri onun poeziyasına həsr olunmuş bədii qiraət müsabiqələrinin keçirilməsidir. Belə müsabiqələrin təşkilinə verilən başlıca pedaqoji tələblər müsabiqə üçün şeirlərin və ayrı-ayrı poemalardan bədii parçaların düzgün – məktəblilərin yaş xüsusiyyətləri baxımından seçilməsi, qiraət materialının tərbiyəvi məzmununa xüsusi diqqət yetirilməsidir. Dərsdənkənar tədbirlər vasitəsi ilə dahi şairin həyat və yaradıcılığını dərindən öyrətmək, sənətinə və şəxsiyyətinə maraq və hörmət hissləri aşılamaq yollarından biri də qabaqcıl məktəblərdə bu mövzuda təşkil olunan ədəbi-bədii-musiqili gecələrin təşkilidir.

Tədqiqatdan aşağıdakı **nəticələr** alınmışdır:

1. Dahi şair-pedaqoqun pedaqoji ideyalarının öyrənilməsi sahəsində pedaqoq alimlərimizdən M.Muradxanov, Ə.Seyidov, H.Əhmədov, Y.Talıbov, S.Quliyev, Ə.Ağayev, , F.Sadıqov, A. Abbasov və başqaları tərəfindən az iş görülməyib. Onların tədqiqatlarında tərbiyənin bir sıra sahələri (əqli tərbiyə, əxlaq tərbiyəsi, əmək tərbiyəsi) ilə bağlı dahi Nizaminin fikirləri öz əksini tapmışdır, lakin şairin bütövlükdə pedaqoji ideyalar sistemi öyrənilməmişdir.

2. Pedaqogika elminin elmi-nəzəri əsasları ilə bağlı dahi şairin fikir və ideyaları sisteminə aşağıdakılar daxildir:

- şəxsiyyətin hərtərəfli inkişafında təhsil, təlim və tərbiyənin, bütövlükdə pedaqoji prosesin əhəmiyyəti böyükdür, lakin özünütəhsilin və özünütərbiyənin rolu əvəzsizdir;

- təlim insanın əqli zənginliyinin və əxlaqi saflığının formalaşmasında ən qüdrətli vasitələrdən biridir; təlim vasitəsilə, hətta, "korafəhim" insanları belə "iqlimlər qazisi" səviyyəsinə qaldırmaq mümkündür;

- təlim-öyrənənlərlə öyrədənlər arasında qarşılıqlı əlaqə prosesidir; təlimin səmərəli nəticə verməsi onlar arasındakı əməkdaşlıqdan çox asılıdır; təlim-tərbiyənin müvəffəqiyyəti ilk növbədə müəllimin savadı və humanizmindən, şagirdləri bir ata kimi sevməsindən, daha sonra isə şagirdin elmə marağı və istedadından asılıdır;

- şəxsiyyətin formalaşmasında irsiyyətin rolu böyük olsa da, həlledici deyil:

- sağlam ictimai mühit müsbət əxlaqi keyfiyyətləri, əlverişsiz mühit isə mənfi sifətlər formalaşdırır; qeyri-əlverişli mühitdə insan yetişdirmək – "şoran torpağa toxum səpməyə" bənzər, heç bir nəticəsi olmaz;

- insanın əqli zənginliyinin, əxlaq saflığının, həm də fiziki kamilliyinin başlıca amillərindən biri də onun halal əməyi, zəhməti, çalışqanlığı, fədakarlığıdır; əmək fəaliyyəti ilə məşqul olmayanlardan yüksək mənəvi keyfiyyətlər gözləmək olmaz;

3. Dünyagörüşü və ağıl tərbiyəsi ilə əlaqədar dahi şair-pedaqoqun irəli sürdüyü pedaqoji fikir və ideyalar aşağıdakılardır:

- ağıl insanın ruhudur, ağılsız insan quru bədəndir; insanı heyvandan fərqləndirən başlıca əlamət onun ağlıdır;

- ağlın çırağı elmdir, dərin bilikdir;

- ən ağıllı insan öyrənməyi ar bilməyən, dərin biliklərə yiyələnməyə daim can atan, hər gecə biliyə "bir qapı" açan, "hər gizli xəzinədən bir dürr" çıxarmağı bacaran, uzaqgörən, sözünü yuz ölçüb bir biçdikdən sonra söyləyən, "xoruz kimi vaxtsız banlamayan", seçdiyi peşənin, sənətin kamil ustası olan, ən çətin məqamlarda səbrlə, təmkinlə hərəkət edəndir;

- ağıl tərbiyəsinin əsas vasitəsi təlim, başlıca yolu öyrənmək və gecə-gündüz yorulmadan çalışmaqdır;

- ən yaxşı dövlət başçısı zəngin elmi dünyagörüşə sahib olan, alimlərə, ağıllı adamlara yüksək qiymət verən, dövləti elmi və ağıllı məsləhətlər əsasında idarə edəndir və s.

4. Dahi şair-mütəfəkkirin pedaqoji ideyaları sistemində əxlaq tərbiyəsi ilə bağlı fikirləri aşağıdakı kimi ümumiləşdirib, qruplaşdırmaq olar:

- insanpərvərlik – insanlığın "parlaq gövhəridir", insan olan hər bir kəs insanları sevməlidir;

- hər bir insan ilk növbədə ata-anasını sevməli, onları "başının tacı"hesab etməli, onlara dərin ehtiram bəsləməlidir; hər bir valideynin borcu isə "evinin yaraşığı, qəlbinin işığı" olan ovladının sağlam və kamil insan kimi formalaşması üçün əlindən gələni əsirgəməməkdir;

- insanpərvərliyin başlıca əlamətləri xeyirxahlıq və yaxşılıqdır; insan

yalnız yaxşı ad qazanması ilə əbədiyyətə qovuşa bilər hər kəsə yaxşılıq etmək düzgün deyil, çünki, həyasız, qəddar, yaramaz adamlara yaxşılıq etmək – yaxşı adamlara yamanlıq etmək deməkdir;

- insanlığa xas olan başlıca keyfiyyətlərdən biri birlik, həmrəylik, dostluq və yoldaşlıqdır; birlik, dostluq sözdə, dildə yox, əməldə olmalıdır:

- hər kəslə dostluq etmək düzgün deyildir, elə dost seçmək lazımdır ki, dar gündə "səni torda qoymasın", nöqsanını üzünə desin, sirrini gizli saxlasın; "yaxşı ad qazanmış gözəl dost" var-dövlətdən daha üstündür;

- insanın ən gözəl, nəcib əxlaqi sifətlərindən biri vətənpərvərlikdir; vətənpərvərlik vətəni sevməklə bitmir, əsl vətənpərvərlik Vətəni qılıncın və ağlın gücü ilə qorumaqdır, Vətən naminə min əzab-əziyyətə qatlaşmaqdır; "Vətəndə ən alçaq insan" olmaq "qürbətdə sultan olmaqdan" daha yaxşıdır;

- "dünyanın nicat yolu düzlükdə" olduğu üçün insan son nəfəsinədək "düzlük qapısını döyməyə həvəs" göstərməlidir; doğruçuluq insanı hər yerdə və hər zaman qoruyan "zirehdir", əyrilik isə insanın eybini göstərir; doğruçuluq "vicdan tərəzisidir", ürəyin düzlüyü isə "ədalət mizanıdır";

- insanın əxlaqi saflığının, mənəvi gözəlliyinin əsas əlamətlərindən biri namus, abr-həya, ar-ismətdir

- insan öz namusunu, ar-ismətini qorumaq üçün şirin canından keçməyi bacarmalıdır;

- insanın yüksək əxlaqının başlıca göstəricilərindən biri də onun sadəliyi və təvazökarlığıdır; təvazökarlığı olmayan insan başını dik tutan, hər an, hər kəsi çalmağa hazır olan "ilana" bənzər; xalqın, elin gözündə ucalmaq istəyirsənsə, onun önündə əyilməyi bacarmalı, özünü sadə aparmalısan;

Dahi şair-mütəfəkkir və böyük tərbiyəçi-pedaqoq müsbət əxlaqi keyfiyyətləri geniş miqyasda təqdir və təlqin etdiyi kimi, insan mənəviyyatını korlayan, onu cılızlaşdıran, fəlakətlərə düçar edən, bütün insanlığa zərər yetirən mənfi əxlaqi sifətləri də ciddi tənqid atəşinə tutur, belə sifətlərə qarşı ardıcıl və qətiyyətli mübarizə aparır. Onun ən çox nifrət etdiyi, insanda görmək istəmədiyi mənfi əxlaqi sifətləri belə qruplaşdırmaq olar: tənbəllik və meşşanlıq; haqsızlıq və vicdansızlıq; yaltaqlıq və ikiüzlülük; xəbislik və paxıllıq; tamahkarlıq və hərislik; lovğalıq və təkəbbürlük; qorxaqlıq və satqınlıq; böhtançılıq və yalançılıq və s.

5. Dahi şair-pedaqoqun pedaqoji ideyalar sistemində əmək tərbiyəsi və iqtisadi tərbiyə ilə bağlı fikirlərinin ümumiləşdirilmiş məğzi belədir:

- insan həyatının əsasını təşkil edən əmək həm maddi firəvanlıq, həm şan-şöhrət, həm də mənəvi rahatlıq mənbəyidir;

- insan mənəviyyatının saflığı onun əməksevərliyindən, halal və

namuslu əməyindən çox asılıdır;

- “zəhmət tikanı” insanı qanına qəltan etsə də, o, namuslu əməyindən əl çəkməməli, kimsəyə möhtac olmamalı, it kimi yad süfrəsinə göz dikməməli, öz halal qazancı ilə yaşamalıdır;

- insan təkcə özü üçün deyil, bütün xalqı üçün, cəmiyyət üçün yorulmadan, usanmadan elə çalışmalıdır ki, dünya onun əməyi sayəsində “zərxara” geyinsin;

- qəflət yuxusuna dalıb müftəxorluq, avaraçılıq, meşşanlıq edən kəslər heç olmazsa, arılardan, qarışqalardan zəhmətsevərliyi öyrənsinlər;

- həyatda hər bir peşənin öz gözəlliyi, öz xüsusiyyəti və öz əhəmiyyəti var; başlıcası, hansı peşəni seçmək yox, seçdiyin peşənin kamil ustası olmaqdır;

- ölkədə hər kəs öz peşəsi, öz sənəti ilə məşğul olmalıdır, əks-təqdirdə, ölkədə xaos hökm sürər, fəlakət törəyər;

- insan üçün ən faydalı keyfiyyətlərdən biri qənaətcillikdir; bu keyfiyyətə malik olmayanların sonu, nə qədər var-dövləti olsa da, yoxsulluqdur;

- iqtisadi bolluğun, əmək məhsuldarlığının başlıca şərtlərindən biri halal zəhmətdir, mayaya haram qatmamaqdır, “şeytanla şərikli” dən əkməməkdir;

- əkinçilikdə yüksək məhsuldarlığın əsas şərtləri: a) əkini vaxtında əkmək; b) əkin üçün sağlam toxum seçmək; c) əkinə qulluq üçün əlləri “dəmirə” çevirib, kürəyin tərini “sel kimi” axıtmaqdır;

6. Dahi Nizaminin estetik baxışları mərkəzində insan gözəlliyi dayanır. Humanist şairə görə, kamil insan − zahiri gözəlliyi ilə yüksək mənəviyyatı vəhdət təşkil edən insandır. Təbiətin “şah əsəri” olan insan öz ülviyyəti və gözəlliyi ilə dünyada birincidir və hər şeydən qiymətlidir. Estetik tərbiyənin ən qüdrətli vasitəsi sözdür. Söz “dünyanın şərəfi”, “cahanda cilvələnən ilk gözəl”, “düşüncənin munisi”, “dünyanın sərvəti, inci qaş-daşıdır”. Söz insana o vaxt gözəl təsir bağışlayır ki, vaxtında və qədərində deyilsin. Yersiz və “ölçüsüz” deyilən söz “qulaq yırtar”, onu dinləyən olmaz. İnsanda hər şey: zahiri də, batini də, ağlı da, əxlaqı da, sözü-söhbəti də, davranışı da, yerişi-duruşu da, işvəsi-nazı da gözəl olmalıdır, çünki insan “hədsiz nəcibliyi” ilə bu dünyanın “əşrəfidir”.

7. Şərq ədəbiyyatında təbiəti mühafizə ideyasını ilk dəfə irəli sürən Nizami Gəncəvinin ekoloji tərbiyə ilə bağlı fikir və ideyalarını belə ümumiləşdirmək mümkündür:

- təbiət bütöv bir orqanizmdir, burada hər bir üzvün, hər bir ünsürün, hər bir canlının öz yeri, öz funksiyası və öz əhəmiyyəti vardır;

- təbiətin “xeyirxahlıq bütü” olan insan öz varlığı ilə dünyada “birinci”, ən üstün olsa da, hər bir canlı da onun qədər dəyərli olan “bir incidir”; insanın canı özünə nə qədər şirindirsə, hər bir canlının da canı bir o qədər özünə şirindir;

- insan hər zaman öz ülviyyətini qorumalı, təbii gözəlliklərdən yalnız zövq almalı, canlıları məhv olmaqdan xilas etməli, “can verməyə qüdrəti” olmadığı üçün “can almağa” yol verməməli, təbiətdən səmərəli, zəruri olduğu qədər istifadə etməlidir;

- təbiətin korlanması son nəticədə insanın özünün məhvinə səbəb ola bilər; insan heç vaxt unutmamalıdır ki, “ağacı yıxanlar tez yıxılarlar”;

8. “Kamil insan” konsepsiyasına axıradək sadiq qalan şair-pedaqoqun fikrincə, hərtərəfli inkişaf etmiş şəxsiyyət əqli zənginlik və əxlaq saflığı ilə bərabər fiziki sağlamlığa da malik olmalıdır. Şairin fiziki tərbiyə ilə bağlı fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- xəstə adamın fikri və sözü də xəstə olar, sağlam bədənli adamın isə sözü saf olar;

- fiziki cəhətdən kamil olan insan qorxmaz, iradəli, hünərli, cəsarətli, “şir ürəkli” və “zirəkdən-zirək” olmalıdır;

-fiziki sağlamlığın başlıca şərtlərindən biri düzgün qidalanmaqdır; insan “eşşək, öküz” kimi çox yeməyə meyl göstərməməlidir, ancaq normadan az yemək də düzgün deyil, bu “canın əldən getməsinə” səbəb ola bilər; qidalanma zamanı yeməyin tərkibinə də diqqət yetirilməlidir;

- fiziki tərbiyədə, orqanizmin sağlamlığı və möhkəmliyində mühüm rol oynayan yuxu rejiminə ciddi əməl etmək vacibdir; insan “ölümə bənzər” yuxuya aludə olmamalıdır;

- orqanizmin sağlamlığına ciddi zərər yetirən əsas amillərdən biri də sərxoşluqdur; şərab nəinki insanın sağlamlığına böyük zərər yetirir, eyni zamanda onun ağlını başından çıxarır, key vəziyyətə salır, “aqilliyin üstündən qələm çəkir”;

- insanın sağlamlığına və fiziki tərbiyəsinə mənfi təsir göstərən amillərdən biri də bədbinlik, əsəbilik, qəm-kədərdir; insan ən çətin anlarında belə nikbin olmağa, şadlanmağa, özünü ruhlandırmağa çalışmalı, qəmi-kədəri yaxın buraxmamalıdır, çünki, “qum nəmi çəkdiyi kimi, qəm də qəmi çəkər”; xəstə adam “sağlamam” desə, daha tez sağalar;

- fiziki sağlamlığa böyük təsir göstərən təbii amillərdən, xüsusilə, təmiz havadan və saf sudan səmərəli istifadə etmək lazımdır; unutmaq olmaz ki, “bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir su da”.

9. Dahi Nizaminin “ədalətli cəmiyyət” konsepsiyasından irəli gələn hüquq tərbiyəsi ilə bağlı fikirləri bunlardır:

- cəmiyyətdə hər bir insan, xüsusilə ölkə başçıları və dövlət məmurları haqqı-ədaləti yüksək tutmalı, qanunlara hörmət etməlidirlər;

- törətdiyi cinayət əməlinə görə kimliyindən asılı olmayaraq (hətta şahzadə olsa belə) hər bir kəs layiqli cəzasını almalıdır; bununla bərabər öz səhvini başa düşüb dərindən peşiman olanları "adil hökmdar" əfv edə bilər; bu insanın yenidən tərbiyələndirilməsi üçün vacibdir;

- ən gözəl cəmiyyət – qanunların şahlıq etdiyi, haqq-ədalət tərəzisinin düzgün işlədiyi cəmiyyətdir;

- ədalətli cəmiyyət və hüquqi, demokratik dövlət quruculuğu birinci növbədə ölkə başçısından–"adil hökmdardan" asılıdır; haqqın ədalətin, qanunların şah tərəfindən pozulduğu bir ölkədə məmurların – "darğaların" cinayəti tüğyan edər.

10. Dahi şair-pedaqoqun ölməz poeziyasından orta məktəblərdə qüdrətli tərbiyə vasitəsi kimi istifadə işinin sisteminə aşağıdakılar daxildir:

10.1. İbtidai siniflərdə şairin həyat və yaradıcılığı ilə ilkin tanışlığın uşaq baxçası ilə müqayisədə genişləndirilməsi və dərinləşdirilməsi:

- "Xəmsə"nin süjetləri əsasında yazılmış nağıl və hekayələrin öyrədilməsi və müzakirəsi;

- "Oxu" təlimi prosesində şairin müdrik kəlamlarından tərbiyələndirici material kimi istifadə olunması;

- Musiqi dərslərində şairin sözlərinə bəstlənmiş mahnıların dinlənilməsi və təhlili zamanı həyatı və yaradıcılığı haqqında qısa məlumatların verilməsi;

- Təsviri incəsənət məşğələlərində şairin portretinin və "Xəmsə"nin süjetləri əsasında rəsmlərin çəkilməsi;

- sinifdənxaric oxu yolu ilə "Xəmsə"dən bəzi tərbiyəvi parçaların əzbər öyrədilməsi və s.

10.2. V-XI siniflərdə humanitar fənlərin tədrisi prosesində şairin poeziyasından, həyatı və şəxsiyyəti, sənəti haqqında yeni məlumatlardan, söz əyaniliyinin formalarından biri və tərbiyə vasitəsi kimi istifadə olunması.

10.2.1. Dərs prosesində:

- Azərbaycan dili, xarici dillər, ədəbiyyat dərslərində şairin yaradıcılığı və şəxsiyyəti haqqında görkəmli şəxsiyyətlərin, dövlət və ictimai xadimlərin kəlamlarından istifadə;

- ədəbiyyat dərslərində şairin həyat və yaradıcılığının öyrədilməsi prosesində əsərlərinin tərbiyəvi cəhətlərinin, "Xəmsə"də türkçülüyə, azərbaycançılığa, Vətənə bağlılığın aşkar edilməsinə yönəldilən müqayisə, müşahidə, müzakirə, disput və debatların təşkili; əqli hücum, qrup

məşğələsi, klasster və s.interaktiv metodların tətbiqi;

- tarix dərslərində dahi şairin yaşadığı dövrün Şərqdə intibahın Azərbaycandan başlanması dövrü kimi səciyyələndirilməsi; "Xəmsə"də tarixi hadisələrin tarixçi alim kimi təsvir edilməsinə aid faktların fənlərarası əlaqə yolu ilə şagirdlərə çatdırılması; Azərbaycan mədəniyyəti tarixində dahi Nizaminin yeri və rolunun göstərilməsi;

- iqtisadi coğrafiya dərslərində şairin bütün dünyada böyük mütəfəkkir kimi tanındığını sübut edən faktların (Romada, Moskvada, Sankt Peterburqda, Daşkənddə, Meksikada və s. ölkələrdə abidəsinin ucaldılması, adını daşıyan bağların, parkların, küçələrin salınması və s.) müvafiq mövzuların tədrisi prosesinə maraqlı informasiya kimi daxil edilməsi;

- musiqi dərslərində şairin özünə həsr olunmuş əsərlərin və sözlərinə bəstələnmiş romans-qəzəllərin, mahnıların öyrədilməsi və təhlili zamanı Nizami Gəncəvi şəxsiyyətinə və ecazkar poeziyasına məhəbbət hisslərinin aşılanması;

10.2.2. Dərsdənkanar tərbiyə işlərinin təşkili prosesində şairin həyat və yaradıcılığının daha dərindən öyrədilməsi, müdrik kəlamlarının, "hikmət və nəsihət"lərinin tərbiyəvi təsir vasitəsi kimi dəyələndirilməsi:

- fənn dərnəklərində "Xəmsə"yə daxil olan poemaların daha dərindən öyrədilməsinə, təhlilinə, təbii-elmi görüşlərinin tədqiqinə həsr olunmuş məruzələrin, müzakirə və diskussiyaların, debatların təşkili;

-şairin həyat və yaradıcılığına həsr olunmuş elmi-praktik konfransların müntəzəm və sistemli təşkilli;

- "Xəmsə"nin öyrənilməsinə və təbliğinə yönələn bədii qiraət müsabiqələrinin keçirilməsi;

- şairin xatirəsinə və yubileyinə həsr olunmuş ədəbi-bədii gecələrin, "Nizami Poeziya günləri"nin, inşa yazıları müsabiqəsinin təşkili;

- şagirdlərin yaradıcılıq nümunələrindən (şairin portretləri, "Xəmsə"nin süjetləri əsasında çəkilmiş şəkillər, miniatürlər, xalq tətbiqi sənət nümunələri və s.) ibarət sərgilər;

- şairin dövrü, həyatı və sənətinə, doğma şəhəri Gəncəyə, yubiley tədbirlərinə həsr olunmuş sənədli və bədii filimlərə, video-çarxlara birgə baxışın təşkili və müzakirəsi;

- Nizami məqbərəsi və şairin adı ilə bağlı digər obyektlərə (park, bağ, kitabxana, muzey, incəsənət mərkəzi və s.) ekskursiyalar.

11. Dahi Nizaminin pedaqoji ideyalar sisteminin tədqiqi və təhlili göstərdi ki, o, təhsil, təlim, tərbiyə və şəxsiyyətin formalaşması məsələləri, xüsusilə, tərbiyənin müasir elmi pedaqogika tərəfindən müəyyənləşdirilən

bütün sahələri (tərkib hissələri) ilə bu və ya digər dərəcədə bağlı olan, əsrlərin sınağından çıxmış, bu gün də öz aktuallığını və əhəmiyyətini itirməmiş dəyərli fikirlər irəli sürmüşdür. Məhz buna görə də Nizami Gəncəvi "bədii sözün tanrısı", (X.L.Ulutürk), "dahi mütəfəkkir şair" titulları ilə yanaşı, "böyük tərbiyəçi- pedaqoq" adını daşımağa tamamilə layiqdir.

Bu günədək tədqiqatçılar dahi şair-pedaqoqun heç vaxt dəyərini itirməyən zəngin irsinə demək olar ki, yubileydən-yubileyə, yəni ən yaxşı halda on ildən bir müraciət etmiş, öz sözlərini deməyə çalışmışlar. Halbuki, dahi Nizaminin ədəbi-pedaqoji irsinin dəyəri elə böyükdür ki, ona hər il yox, hər ay yox, hər gün müraciət etmək və ondan öyrənmək, gənc nəslə öyrətmək vacibdir.

Dissertasiya işi ilə bağlı müəllifin aşağıdakı **əsərləri** nəşr edilmişdir:

1. N.Gəncəvinin əsərlərində əqli tərbiyə məsələləri // Gəncə Dövlət Universitetinin Elmi əsərləri, II hissə, 2001, s.157-159

2. N.Gəncəvinin əsərlərində ekoloji tərbiyə məsələləri // Gəncə Dövlət Universitetinin Elmi əsərləri, VIII hissə, 2004, s.282-283

3. N.Gəncəvinin əsərlərində hərbi vətənpərvərlik tərbiyəsi məsələləri // Gəncə Dövlət Universitetinin Elmi əsərləri, VIII hissə, 2004, s.283-284

4. Nizami Gəncəvinin pedaqoji görüşləri. Monoqrafiya. Bakı: Adiloğlu, 2008, 244 s.

5. N.Gəncəvinin əsərlərində ağıl tərbiyəsi məsələləri / Pedaqgika və psixologiyanın aktual problemləri mövzusunda Beynəlxalq konfransın materialları. Gəncə, 2010, s.46-51

6. N.Gəncəvinin əxlaq və əxlaq tərbiyəsi haqqında fikirləri / "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda respublika elmi konfarsının materialları, Bakı: Mütərcim, 2012, s.146-147

7. Nizami Gəncəvinin əsərlərində ağıl tərbiyəsi məsələləri // Hümanitar Elmlərin öyrənilməsinin aktual problemləri, 2012, №2, s.129-133

8. Nizami Gəncəvinin "Xəmsə"sində estetik tərbiyə məsələləri // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2012, №2, s.231-236

9. Nizami Gəncəvinin yaradıcılığında coğrafi adlar / Nizami Gəncəvinin 870 illiyinə həsr olunmuş konfransın materialları. Gəncə, 2012, s.73-92

10. Nizami Gəncəvinin poeziyasında təbiəti mühafizə və ekoloji tərbiyə məsələləri // Nizamişünaslıq. Elmi xəbərlər, Bakı,

2011, №1, s.182-186

11. Nizami Gəncəvinin təbiəti mühafizə konsepsiyası // Hümanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, 2012, №3, s.178-181

12. Nizami Gəncəvi poeziyasında peşəyönümü və iqtisadi tərbiyə məsələləri / "Ümumi orta təhsilin müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 2012, s.220-222

13. Ədəbiyyat fənninin tədrisi prossesində Nizami irsindən istifadə tərbiyə vasitəsi kimi // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2012, №3, s.182-191

14. Nizami Gəncəvi poeziyasında iqtisadi tərbiyə məsələləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi Əsərlər, 2012, №4, s.174-179

15. Вопросы патриотического воспитания в поэзии в Низами Гянджеви // Казахский Национальный Педагогический Университет имени Абая. Вестник, Алматы, 2012, №3, с.38-42

16. Dərsdənkənar tədbirlərdə Nizaminin tərbiyəvi fikirlərindən istifadə // Naxçıvan Müəllimlər İnstitunun Xəbərləri, Cild:8, №4, 2012, s.25-31

17. Вопросы справедливого правителя и юридического воспитания в поезии Низами Гянджеви / Культура какосновной потенсиал формирования позитивного имиджа Кавказа. Материалы Международной научно-практической конференции. Пятигорск: ПГЛУ, 2012,с.182-184

18. Nizami poeziyasında insanpərvərlik tərbiyəsi məsələləri // Pedaqoji Universitet Xəbərləri, 2012, №4, s.253-258

19. Nizami Gəncəvi irsindən tarix dərslərində istifadənin imkan və yolları // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2013, №1, s.200-204

20. Heydər Əliyev və Nizami Gəncəvi irsinə məhəbbətin təntənəsi / Azərbaycanşünaslığın aktual problemləri. Ümumilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş IV Beynəlxalq elmi konfransının materialları. Bakı, 2013, s.51-52

21. Heydər Əliyev və Nizami Gəncəvi irsinin öyrənilməsi / "Heydər Əliyev Müstəqil Azərbaycan Dövlətinin qurucusu və baş memerıdır" mövzusunda Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans. I hissə. Gəncə, 2013, s.188-208

22. Nizami Gəncəvi irsindən coğrafiya dərslərində istifadə tərbiyə vasitəsi kimi // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2013, №2, s.263-268

23. Мысли Низами Гянджави о факторах,влияющих на формирование личности / Фундаментальные и прикладные проблемы науки. Материалы VIII Международного симпозиума. RAH. Москва, Том 8, 2013, с.3-9

24. Pedaqoji prosesdə Nizaminin pedaqoji ideyalarından istifadə işinin sistemi / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransının materialları. II cild, Bakı, 2013, s.310-312

25. Nizami irsindən musiqi və təsviri incəsənət dərslərində istifadə tərbiyə vasitəsi kimi // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2013, №3, s.227-231

26. Nizami Gəncəvinin tərbiyəvi fikirləri // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2013, №4, s.266-270

27. "Qum kəndi" versiyası, yoxsa Nizami Gəncəvinin doğulduğu yer haqqında cəfəngiyyat? / Azərbaycanşünaslığın aktual problemləri. Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr olunmuş V Beynəlxalq elmi konfransının materialları, Bakı, 2014, s.63-65

28. Bir daha Nizami Gəncəvinin tərcümeyi-halı haqqında // Bakı, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2014, № 2, s.140-147

29. Некоторыевопросы воспитания в поезии Низами Гянджави // Проблемы современной науки: Сборник научных трудов: вып. 14, Ставрополь: Логос, 2014, с.89-94

30. Вопросы трудового воспитания в поезии Низами Гянджави // Проблемы современной науки: Сборник научных трудов: вып. 15, Ставрополь: Логос, 2014,с.42-48

31. Nizami Gəncəvi yaradıcılığında əxlaq tərbiyəsinin bəzi məsələləri // Gəncə Dövlət Universitetinin Elmi xəbərləri, 2015, №1, s.282-287

32. Fundamentals ideas with the general theoretical pedagogy in poetry of Nizami Ganjavi // International Scientific Journal. Teoretical Applid Science. – Oster sund, Sweden, 2015, № 4(24), p.185-187

33. Некоторые вопросы образования, обучения и воспитания в поэзии Низами Гянджави // Проблемы современной науки: сборник научных трудов. Выпуск 19, Ставрополь: Логос, 2015,с.29-38

34. О роли физического здоровья и навыков в « Пятерице»

великого поэта и мыслителя Низами Гянджави // Hümanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. №4, 2015, Bakı: Mütərcim,s. 356-364

35. Физическое воспитания в творчестве Низами Гянджави // Каз.НПУ. Хабаршы. Вестник. Серия « Педагогические науки», № 4(48), Алматы, 2015 ,с.168-174

**Апоев Байрам Фати оглы**

## Система педагогических идей Низами Гянджеви

## РЕЗЮМЕ

Диссертационная работа состоит введения, семи глав, общих заключений и списка использованной литературы.

При введении была обоснована актуальность темы, определен объект, предмет, цель и обязанности исследований, поставлена разумная гипотеза, даны методы, характерные исследованию. При введении также были указаны краткие и ясные сведения о научных инновациях, теоретической и практической значимости, апробации, об основных положениях и структурах диссертации.

В I главе диссертации, названной «Постановкой проблемы» широко анализируется научно-педагогическая литература с точки зрения заданной проблемы. Определено, что многие выдающиеся представители науки и искусства высказали свое мнение о Низами, а также выявлены интересные научно- исследовательские работы о Низами в мировой литературоведении. Автор в связи с данной проблемой в результате исследований и анализа научной литературы доказывает, что начиная, с 40-х годов XX века в низамиведении, в том числе в направлении исследования его педагогического аспекта были сделаны много работ и проведены специальные научные исследования, напечатаны множество книг и брошюр, статьи и тезисы. Несмотря на это, до сих пор педагогические идеи Низами Гянджеви не были исследованы в системной форме и на уровне докторской диссертации.

II глава диссертации «ИдеиНизами Гянджеви связанные с общими теоретическими основами педагогики», насыщенна ценными научными выводами, связана с общими теоретическими основами, где

исследователь проводит тщательные и убедительные анализы с факторами, влияющие на образование, обучение, общие вопросы воспитания, а также на формирование личности. Он приводит конкретные примеры, где идеи выдающего поэта о личности учителя в работе воспитания и образования, которые и сегодня актуальны и достойны изучения.

В последующих четырех главах (III-VI главах) по компонентам и главам анализируется, и группируются идеи Низами. Впервые в педагогической науке в результате данного анализа и группирования в этих главах показаны анализы фраз гениального поэта, имеющие особое значение для современного периода, связанные с умственным, нравственным,трудовым, эстетическим, экономиическим, а также физическим и юридическим воспитанием. Также выявлены значения фраз и определена их роль в развитии современной педагогической науки.

Седьмая глава диссертации называется «Система работы использования наследия Низами в педагогическом процессе». Эта глава посвящена определению путей и возможностей использования педагогических идей Низами Гянджеви в процессе преподования гуманитарных предметов и использования педагогических идей Низами во время внеклассных мероприятий. В главе с научно-педагогической точки зрения полностью обосновано, что система педагогических идей Низами Гянджеви в нашей системе образования перестроена на кране национальной почве, особенно в настоящий период, когда широко используются национальные и духовные ценности в работе воспитания и образования.

В результате исследования доказано, что педагогические идеи Низами Гянджеви изучены и обобщены в форме системного комплекса, которая обогатила педагогическую теорию и практику новыми научными идеями и предложениями.

**Apoyev Bayram Feti oglu**

## The pedagogical ideas system of Nizami Ganjavi

### Summary

The thesis work consists of introduction, seven chapters, general results, and used literature.

It was guided by the actuality of themes, the object, subject, purpose and duties of research, given fundamental supposition, given chosen methods according to the character of the research in the introduction. It was indicated scientific innovation, the importance of practice and theoretical, approbation, fundamental thesis that presented to defense, and it was shown short information about the structure of thesis clearly and shortly in the introduction, too.

Scientific- pedagogical literature is analyzed widely according to the problem in the first chapter as known "The statement of problem" of thesis. It is clear that famous scientific, art people said their thoughts about Nizami Ganjavi, it was appeared interesting research works about Nizami in the world literary criticism. The author proved that about the problem as the result of research and explaining of scientific literature, beginning from 40 years of XX century, it was done great jobs about Nizami study, also in the direction of researching of its pedagogical aspects, printed a lot of books and booklets, articles and lectures. Although, it has not been researched the pedagogical ideas of Nizami Ganjavi as a system form and on the level of dissertation of doctor of sciences until now.

The second chapter which is rich in its valuable scientific results is called "the ideas about the foundation of general pedagogical theory in Nizami Ganjavi's work" and the doctorate analyses deep and convincing ideas about the general issues of the education, bringing up and teaching and the formation of person. With the concrete samples he showed that the thoughtful poet's opinions about teacher' personality, convenience between teacher and students, exceptional role of the teacher in the teaching and

bringing up process have the valuable and advocated cost at present.

In the next four chapters, (III-VI chapters) Nizami's ideas about bringing up components are listed and investigated. For the first time, it was indicated the important saying that are valuable for the present , according with mind, morality, labour, economy, aesthetic and ecology, and also physical and legal bringing ups in the given chapters and their meaning shades and roles in the development of the modern pedagogical science are clarified.

The seventh level of thesis was called as "the system of using work from Nizami legacy at the pedagogical process. This chapter is devoted to the definition the opportunity and ways of using from pedagogical ideas of Nizami Ganjavi and the methods of using during out of the lesson measures from pedagogical ideas of

Nizami. The author was based perfectly from the point of scientific pedagogical view that the system of Nizami Ganjavi's pedagogical ideas is very important and useful at that time in which our education system is reconstructed in the nation ground and national –spiritual values are widely used in the process of teaching –education.

In the result of the research, it was proved that Nizami Ganjavi's pedagogical thoughts system was studied and generalized and dissertation work was enriched the pedagogical theory and practice with the new scientific ideas and suggestions.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**БАЙРАМ ФАТИ оглы АПОЕВ**

# СИСТЕМА ПЕДАГОГИЧЕСКИХ ИДЕЙ НИЗАМИ ГЯНДЖЕВИ

**5804.01 – общая педагогика, история педагогики и образования**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора наук по педагогическим наукам**

**Б А К У – 2 0 1 7**